**Proqram:** ***Dövlət idarə etməsi (Azərbaycan dilində)***
**Tələbələr:** ***Yeganə Göyüşlü, Elməddin Zeynalzadə, İlkin Məmmədli, Səməndar Həsənov***
**Layihə mövzusu:** ***"Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında funksional uyğunsuzluq - Azərbaycan kontekstində"***

Elmi rəhbər: ______________________

İmza: ___________________________

**15 dekabr 2025-ci il**

**ADA UNIVERSITETİ**
**İCTİMAİ VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR FAKÜLTƏSİ**
**DÖVLƏT İDARƏETMƏSİ ÜZRƏ MAGİSTR PROGRAMI**

**DÖVLƏT İDARƏETMƏSİ ÜZRƏ**
**MAGİSTR DƏRƏCƏSİNİN TƏLƏBLƏRİNİN YEKUN BURAXILIŞ LAYİHƏSİ**

# *“Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında funksional uyğunsuzluq - Azərbaycan kontekstində”*

**Yeganə Göyüşlü (ygoyushlu@ada.edu.az)**
**Elməddin Zeynalzadə (ezeynalzada21577@ada.edu.az)**
**İlkin Məmmədli (imammadli21586@ada.edu.az)**
**Səməndar Həsənov (shasanov20990@ada.edu.az)**

**Bakı, 15 dekabr, 2025**

**ADA UNİVERSİTETİ**

**Proqram:** Dövlət idarəetməsi (Azərbaycan dilində)

**Tələbələr:** Yeganə Göyüşlü, Elməddin Zeynalzadə, İlkin Məmmədli, Səməndar Həsənov

**TƏSDİQ EDİLDİ:**

**Akademik Rəhbər:**________________________________
**Təşkilat Rəhbəri:** _________________________________
**Məktəbin Dekanı:** _________________________________

**15.12. 2025**

## HƏQİQİLİK BƏYANATI

Biz ADA Universitetinin plagiatla bağlı bəyanatı ilə tanış olmuşuq və təsdiq edirik ki, ***"Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında funksional uyğunsuzluq - Azərbaycan kontekstində"*** adlı işin məzmunu bizim şəxsi işimizdir və heç bir təsdiq olunmamış əsəri ehtiva etmir.

Bununla bağlı bildiririk ki, magistr işi ilk araşdırmamızdır və heç bir dərəcə imtahanı üçün təqdim edilməyib.

**Yeganə Göyüşlü:** ________________

**Elməddin Zeynalzadə:** ________________

**İlkin Məmmədli:** ___________________

**Səməndar Həsənov:** ________________

**Tarix:** ______________________

## MÜNDƏRİCİAT


**I FƏSİL.**
**GİRİŞ----------------------------------------------------------------------------------7**
**1.1 Tədqiqatın metodologiyası ------------------------------------------------11**

**II FƏSİL. PROBLEMİN SƏBƏBLƏRİ-----------------------------------------------14**
**2.1. Tam orta təhsil tədrisi ilə ali təhsilə qəbul imtahanlarının tələbləri arasında funksional uyğunsuzluq-----------------------------------------------14**
**2.2. Məktəbdaxili tədrisin təkmilləşdirmə və fərdiləşmə imkanlarının məhdudluğu ------------------------------------------------------------------------16**
**2.3. Müəllim motivasiyasının və institusional stimulların zəifliyi --------18**

**III FƏSİL. SİYASƏT SEÇİMLƏRİ--------------------------------------------21**
**3.1 Ali təhsil müəssisələrinə tələbə qəbul modelinin yenidən formalaşdırılması ---------------------------------------------------------------21**
**3.2 Məktəbdaxili fənn dərnəkləri və universitetə qəbulyönümlü hazırlıq modelinin yaradılması-------------------------------------------------------------24**
**3.3 Müəllim motivasiyasının gücləndirilməsi və məktəbdaxili institusional stimulların yaradılması ------------------------------------------------27**
**3.4 Təklif olunan siyasət alternativlərinin liseylərdə pilot tətbiqi -------29**

**IV Fəsil. Təklif Edilən Həll Yollarının Qiymətləndirilməsi-------31**
**4.1. Ali təhsil müəssisələrinə tələbə qəbul modelinin yenidən formalaşdırılmasının qiymətləndirilməsi -------------------------------------31**
**4.2. Məktəbdaxili fənn dərnəkləri və universitetə qəbulyönümlü hazırlıq modelinin qiymətləndirilməsi----------------------------------------------------32**
**4.3. Müəllim motivasiyasının gücləndirilməsi və məktəbdaxili institusional stimullar yaradılması modelinin qiymətləndirilməsi------33**
**4.4 Ən uyğun siyasət alternativinin seçilməsi və əsaslandırılması----34**

**V FƏSİL. NƏTİVƏ VƏ TÖVSİYƏLƏR--------------------------------------37**
**5.1 Tədqiqatın ümumi xülasəsi -----------------------------------------------37**
**5.2 Üstünlük verilən siyasət seçimləri ----------------------------------------37**
**5.3 Tövsiyələr --------------------------------------------------------------------37**
**Ədəbiyyat siyahısı -----------------------------------------------------------40**
**Əlavələr-------------------------------------------------------------------------43**

# XÜLASƏ

Bu capstone tədqiqatı Azərbaycan kontekstində **tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğu** araşdırır və bu problemin struktur səbəblərini təhlil edir. Bu tədqiqatda **"funksional uyğunsuzluq"** anlayışı tam orta təhsil sistemində formalaşdırılan bilik və bacarıqlar ilə ali təhsilə qəbul prosesində ölçülən tələblər arasında mövcud olan tədris–qiymətləndirmə və seçim mexanizmləri səviyyəsindəki uyğunsuzluğu ifadə etmək üçün istifadə olunur. Tədqiqatın əsas məqsədi məktəb təhsilinin ali təhsilə hazırlıq funksiyasının niyə zəiflədiyini müəyyən etmək və bu uyğunsuzluğun aradan qaldırılması üçün siyasət yönümlü həll yollarını qiymətləndirməkdir.

Araşdırma göstərir ki, məktəb kurikulumlarında nəzərdə tutulan kompetensiya əsaslı yanaşma ilə ali təhsilə qəbul imtahanlarında ölçülən tələblər arasında ciddi fərqlər mövcuddur. Bu uyğunsuzluq məktəbin funksional rolunu zəiflədir və şagirdlərin ali təhsilə hazırlıq prosesində məktəbdənkənar alternativ mexanizmlərə yönəlməsinə səbəb olur. Tədqiqat çərçivəsində problemin əsas səbəbləri kimi qəbul modelinin məhdudluğu, məktəbdaxili tədrisin dərinləşmə və fərdiləşmə imkanlarının yetərsizliyi, eləcə də müəllim motivasiyası və institusional stimulların zəifliyi müəyyən edilmişdir.

Metodoloji baxımdan tədqiqat qarışıq metod yanaşmasına əsaslanır. Araşdırma çərçivəsində 700-dən çox müəllimin iştirakı ilə onlayn sorğu keçirilmiş, iki ali məktəb müəllimi ilə şəxsi müsahibə aparılmış və rəsmi normativ sənədlər təhlil edilmişdir. Əldə olunan empirik və nəzəri nəticələr əsasında üç əsas siyasət alternativi formalaşdırılmış və effektivlik, səmərəlilik, ədalətlilik, reallaşdırma imkanı və elastiklik meyarları üzrə qiymətləndirilmişdir.

Müqayisəli təhlil nəticəsində ən uyğun siyasət alternativi kimi ali təhsilə qəbulun çoxkomponentli model əsasında yenidən formalaşdırılması müəyyən edilmişdir. Bu model məktəbdaxili qiymətləndirmə, şagird portfolioları və mərkəzləşdirilmiş imtahanın balanslı şəkildə birləşdirilməsini nəzərdə tutur və məktəb təhsilinin qəbul prosesində real dəyər qazanmasını təmin edir. Məktəbdaxili fənn dərnəkləri və müəllim motivasiyasını gücləndirən institusional stimullar isə bu əsas modelin effektivliyini artıran tamamlayıcı mexanizmlər kimi tövsiyə olunur.

Nəticə etibarilə, tədqiqat sübut edir ki mövcud problem məktəbin öz mahiyyətindən deyil, məktəb ilə ali təhsilə qəbul sistemi arasında qurulmuş əlaqənin zəifliyindən qaynaqlanır. Təklif olunan inteqrə edilmiş siyasət yanaşması məktəbin ali təhsilə aparan əsas və etibarlı hazırlıq mərhələsi kimi rolunun bərpası üçün praktik və dayanıqlı həll yolu təqdim edir.

# I FƏSİL
# GİRİŞ

## Problemin yaranması və mövcud vəziyyətin təhlili

Azərbaycan təhsil sistemində tam orta təhsil pilləsi şagirdlərin ali təhsilə hazırlanmasında əsas mərhələ kimi nəzərdə tutulur. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa və ümumi təhsilin dövlət standartlarına əsasən bu mərhələdə şagirdlər yalnız fənn bilikləri deyil, eyni zamanda analitik düşünmə, problem həll etmə və müstəqil öyrənmə bacarıqları əldə etməlidirlər (Təhsil haqqında AR Qanunu, 2009; Ümumi təhsilin dövlət standartları). Qanunun **4-cü maddəsində** qeyd olunur ki, təhsilin əsas məqsədi: *şəxsiyyətin intellektual, analitik və yaradıcı inkişafını, müstəqil düşünmə və qərarvermə bacarıqlarının formalaşdırılmasını təmin etməkdir. Bu müddəa tam orta təhsil pilləsinə də birbaşa aiddir və məktəbin yalnız fakt bilikləri deyil,* ***bacarıqlar formalaşdırmalı olduğunu*** *normativ şəkildə təsdiqləyir.* Lakin mövcud ali təhsilə qəbul sistemi bu bacarıqların ölçülməsindən daha çox standartlaşdırılmış test tapşırıqlarının icrasına yönəlmişdir. Bu vəziyyət məktəb təhsili ilə ali təhsilə qəbul arasında funksional uyğunsuzluq yaradır. Məktəbdə formalaşdırılan bacarıqlar qəbul imtahanlarında kifayət qədər nəzərə alınmadığı üçün şagirdlər məktəb təhsilini məqsəd deyil vasitə kimi görürlər. Təhsil prosesi dərin öyrənmədən çox imtahan strategiyalarının mənimsənilməsinə yönəlir. Nəticədə məktəb təhsili ali təhsilə gedən əsas yol olmaq funksiyasını qismən itirir.

Lakin mövcud ali təhsilə qəbul sistemi bu normativ məqsədlərlə tam uzlaşmır. Qəbul mexanizmləri əsasən standartlaşdırılmış test tapşırıqlarına, vaxt məhdudiyyətinə və texniki icra bacarıqlarına əsaslandığı üçün məktəbdə formalaşdırılması nəzərdə tutulan analitik düşünmə, tətbiqi bilik və problem həll etmə bacarıqları qəbul prosesində kifayət qədər ölçülmür. Bu vəziyyət tam orta təhsildə formalaşdırılan bilik və bacarıqlarla ali təhsilə qəbulda qiymətləndirilən tələblər arasında **tədris–qiymətləndirmə səviyyəsində funksional uyğunsuzluq** yaradır. Nəticədə şagirdlər məktəb təhsilini ali təhsilə aparan əsas hazırlıq mərhələsi kimi deyil, imtahan nəticəsinə aparan vasitə kimi dəyərləndirməyə başlayırlar.

Beynəlxalq tədqiqatlar göstərir ki ali təhsilə qəbulun yüksək riskli xarakter daşıdığı sistemlərdə bu tip uyğunsuzluqlar daha kəskin şəkildə özünü göstərir. Bir və ya bir neçə imtahan nəticəsinin şagirdin gələcək təhsil və peşə trayektoriyasını müəyyən etməsi ailələrdə güclü risk qavrayışı yaradır və məktəb təhsilinə olan inamı zəiflədir (OECD, 2019; Klenowski, 2014). Bu şəraitdə valideynlər məktəb təhsilini kifayət qədər etibarlı mexanizm kimi qəbul etmir və əlavə hazırlıq yollarına yönəlirlər. Silova (2010) qeyd edir ki postsovet ölkələrində qəbul imtahanlarının yüksək riskli strukturu kölgə təhsil mexanizmlərinin normallaşmasına və məktəbdənkənar hazırlığın təhsilin ayrılmaz hissəsi kimi qəbul edilməsinə səbəb olur.

Problemi dərinləşdirən digər mühüm amil tam orta təhsil səviyyəsində tədrisin fərdiləşmə imkanlarının məhdud olmasıdır. Azərbaycan kontekstində siniflərdə şagird sıxlığı, şagirdin qəbul qrupu üçün seçdiyi fənn üzrə dərs saatlarının məhdudluğu və müəllimlərin üzərinə düşən inzibati yüklər fərdi yanaşmanın sistemli şəkildə tətbiqini çətinləşdirir. Bu vəziyyət müxtəlif səviyyəli şagirdlərin ehtiyaclarının eyni tədris modeli çərçivəsində qarşılanmasına gətirib çıxarır. Bu tədqiqat çərçivəsində aparılmış müəllim sorğusunun nəticələri də bunu təsdiqləyir: sorğuda iştirak edən müəllimlərin əhəmiyyətli

hissəsi yuxarı siniflərdə fərdi yanaşma və dərinləşdirilmiş hazırlıq üçün məktəbdaxili imkanların məhdud olduğunu qeyd etmişdir. Eyni zamanda aparılmış keyfiyyət müsahibələrində müəllimlər qəbul imtahanlarına uyğun məqsədyönlü hazırlığın məktəb daxilində sistemli şəkildə təmin edilmədiyini vurğulamışlar.

Beləliklə, şagirdlər qəbul sisteminin tələblərinə uyğun daha intensiv və nəticəyönümlü hazırlıq axtarışına çıxır və məktəbdənkənar mexanizmlərə üz tuturlar. Bu mərhələdə repetitorluq alternativ seçim kimi deyil, struktur boşluğu dolduran zəruri mexanizm kimi meydana çıxır. Lakin bu capstone layihəsinin əsas arqumenti ondan ibarətdir ki repetitorluğun geniş yayılması səbəb deyil, məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan struktur və funksional uyğunsuzluğun nəticəsidir. Beynəlxalq təcrübə də göstərir ki qəbul mexanizmləri məktəb kurikulumu və məktəbdaxili qiymətləndirmə ilə uzlaşdırıldıqda kölgə təhsilinin rolu əhəmiyyətli dərəcədə zəifləyir (Bray & Lykins, 2012; OECD, 2020).

Nəticə etibarilə, Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan bu uyğunsuzluq yalnız pedaqoji deyil, eyni zamanda sosial və idarəetmə xarakterli problemdir. Bu uyğunsuzluq məktəbin təhsil sistemindəki mərkəzi rolunu zəiflədir və qeyri-rəsmi mexanizmlərin güclənməsi üçün münbit şərait yaradır. Problemin həlli repetitorluğun məhdudlaşdırılmasından daha çox məktəb və qəbul sistemi arasında məntiqi, ölçülə bilən və institusional əlaqənin bərpa olunmasını tələb edir. Məhz bu yanaşma növbəti fəsillərdə təklif ediləcək siyasət alternativlərinin konseptual əsasını təşkil edir.

# Problemin aktuallığı

Son illərdə Azərbaycanda təhsil sahəsində aparılan islahatlara baxmayaraq tam orta təhsil səviyyəsi ilə ali təhsilə qəbul sistemi arasında funksional uyğunsuzluq problemi aktuallığını qorumaqda davam edir. Tam orta məktəbin əsas missiyası şagirdləri ali təhsilə və gələcək peşə həyatına hazırlamaq olsa da mövcud qəbul mexanizmləri bu məqsədlə verilən tədris məzmunu və qiymətləndirmə yanaşmaları ilə tam uzlaşmır. Nəticədə məktəbdə əldə olunan bilik və bacarıqlar ali təhsilə qəbul üçün kifayət qədər effektiv mexanizm kimi qəbul edilmir.

.



Capstone layihəsi çərçivəsində aparılmış sorğunun da nəticəsindən görünür ki, hazırki məktəb proqramı ali məktəbə qəbul imtahanları üçün yetərli deyil və sorğuda iştirak edən repondetlərin 56%-i bunu təsdiq etmişdir. (Müəllimlər üzrə sorğu nticələri. Əlavədə)

Mövcud vəziyyət onu göstərir ki məktəblərdə tətbiq edilən kurikulum kompetensiya əsaslı təhsili hədəflədiyi halda ali təhsilə qəbul sistemi əsasən test yönümlü qiymətləndirmə mexanizmlərinə əsaslanır. Bu fərq şagirdlərin məktəb təhsilini ali təhsilə aparan əsas yol kimi deyil formal mərhələ kimi dəyərləndirməsinə səbəb olur. Valideynlər və şagirdlər məktəb təhsilinin qəbul prosesində həlledici rol oynamadığı qənaətinə gəlir və nəticədə alternativ hazırlıq yollarına yönəlirlər.

Bu alternativ yolların ən geniş yayılmış forması repetitorluqdur. Lakin bu capstone layihəsində repetitorluq əsas problem kimi deyil tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun sosial və pedaqoji nəticəsi kimi qiymətləndirilir. Başqa sözlə repetitorluq problemi yaradan deyil problemdən doğan mexanizmdir. Şagirdlərin repetitor yanına getməsi fərdi seçimdən daha çox sistemin yaratdığı zərurətin nəticəsi kimi ortaya çıxır.

Müəllimlər arasında keçirdiyimiz sorğunun da nəticəsindən görünür ki, hazırki məktəb proqramı ali məktəbə qəbul imtahanları arasında olan uyğunsuzluq mövcuddur və iştirak edən repondetlərin 67%-i bunu təsdiq etmişdir. (Müəllimlər üzrə sorğu nticələri. Əlavədə)




Tədqiqat çərçivəsində aparılmış keyfiyyətyönümlü, yarı-strukturlaşdırılmış ekspert müsahibəsi də tam orta təhsil ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun praktik səviyyədə necə qəbul edildiyini təsdiqləyir. Müsahibə zamanı ekspert qəbul imtahanları ilə bağlı ictimai diskursda səsləndirilən mövqelərə diqqət çəkərək qeyd etmişdir ki, Dövlət İmtahan Mərkəzinin rəhbərliyi tərəfindən verilən açıqlamalarda qəbul imtahanlarına hazırlıq üçün əsas istinad mənbəyi kimi məktəb dərsliklərindən deyil, DİM tərəfindən hazırlanmış xüsusi vəsaitlərdən bəhs olunur.

Ekspertin fikrincə, bu yanaşma normativ sənədlərdə nəzərdə tutulan məktəb tədrisinin mərkəzi roluna ziddir. Belə ki, dövlət tərəfindən ümumi təhsil sisteminə əhəmiyyətli maliyyə vəsaiti ayrıldığı, dərsliklərin hazırlanması, müəllim vəsaitlərinin çapı və bütün şagirdlərin pulsuz dərsliklərlə təmin edildiyi halda, ali təhsilə qəbul prosesində bu resursların dolayısı ilə ikinci plana keçməsi məktəb–qəbul sistemi arasında struktur uyğunsuzluğun göstəricisi kimi qiymətləndirilir. Ekspert bu ziddiyyəti qəbul sistemində məktəb tədrisinin real funksional çəkisinin zəifləməsi kimi xarakterizə etmişdir (ADA Universitetinin Təhsil fakültəsinin müəllimi ilə şəxsi müsahibə, 30 dekabr 2026).

Beynəlxalq tədqiqatlar göstərir ki, kölgə təhsilinin yayılması əksər hallarda rəsmi təhsil sistemi ilə qiymətləndirmə mexanizmləri arasında uyğunluğun zəif olduğu ölkələrdə daha geniş müşahidə olunur. Mark Bray qeyd edir ki, məktəbin funksional rolu zəiflədikcə kölgə təhsil formaları güclənir və bu proses məktəbin alternativi kimi çıxış etməyə başlayır (Bray 2013). Azərbaycan kontekstində də oxşar tendensiya müşahidə olunur. Dövlət İmtahan Mərkəzinin 2024-cü il sorğusuna görə, abituriyentlərin 64%-i bildirir ki, məktəb proqramı imtahan tələblərini tam qarşılamır. Bu faktlar göstərir ki, məktəb təhsili formal iştirak səviyyəsinə enib, şagirdlərin real öyrənmə prosesini isə repetitorlar təmin edir. Dövlət İmtahan Mərkəzinin məlumatlarına əsasən abituriyentlərin əhəmiyyətli hissəsi məktəb proqramının qəbul tələblərini tam əhatə etmədiyini bildirir (DİM 2024).

Bu capstone layihəsinin əsas məqsədi Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğu təhlil etmək bu uyğunsuzluğun səbəblərini müəyyənləşdirmək və onun təhsil sisteminə təsirlərini qiymətləndirməkdir. Layihə repetitorluğun miqyasını araşdırmaqdan daha çox onu doğuran struktur problemləri üzə çıxarmağı hədəfləyir. Bu yanaşma problemin səthi deyil sistemli şəkildə təhlil olunmasına imkan yaradır və siyasət yönümlü həll mexanizmlərinin formalaşdırılmasına zəmin yaradır.

## Tədqiqatın əhəmiyyəti

Bu tədqiqatın əsas əhəmiyyəti Azərbaycan təhsil sistemində tam orta təhsil pilləsi ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun sistemli şəkildə təhlil edilməsindədir. Mövcud müzakirələrdə bu problem əksər hallarda repetitorluğun yayılması kontekstində təqdim olunsa da əsas səbəblər dərinləşdirilmədən kənarda qalır. Bu tədqiqat isə repetitorluğu problem kimi deyil daha çox mövcud struktur uyğunsuzluğun təbii nəticəsi kimi qiymətləndirərək diqqəti problemin kökünə yönəldir.

Araşdırmanın elmi əhəmiyyəti ondan ibarətdir ki, tam orta təhsilin normativ məqsədləri ilə ali təhsilə qəbul mexanizmlərinin real tələbləri arasındakı fərqlər analitik müstəvidə müqayisə olunur. Bu yanaşma məktəbin formal iştirak mərhələsinə çevrilməsi prosesini izah etməyə imkan yaradır və təhsil sistemində yaranan boşluqları daha aydın göstərir. Tədqiqat bu baxımdan təhsil siyasəti sahəsində mövcud nəzəri müzakirələri yerli kontekstlə əlaqələndirir və empirik müşahidələrlə zənginləşdirir.

Praktiki baxımdan tədqiqatın əhəmiyyəti ondan ibarətdir ki o qərarvericilər üçün mövcud vəziyyətin daha düzgün qiymətləndirilməsinə imkan yaradır. Əgər problemin yalnız repetitorluğun tənzimlənməsi səviyyəsində həll olunmasına çalışılarsa, əsas uyğunsuzluq qalmaqda davam edəcək. Bu tədqiqat isə göstərir ki, davamlı və uzunmüddətli həll yolu məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında funksional əlaqənin bərpasından keçir. Bu yanaşma təhsil islahatlarının istiqamətinin daha dəqiq müəyyənləşdirilməsinə töhfə verə bilər.

Tədqiqatın sosial əhəmiyyətinə gəldikdə isə xüsusilə qeyd olunmalıdır ki, tam orta təhsil ilə ali təhsilə qəbul arasında uyğunsuzluq təhsildə bərabər imkan prinsipinə mənfi təsir göstərir. Məktəb təhsili ali təhsilə aparan əsas mexanizm kimi işləmədikdə şagirdlər alternativ hazırlıq yollarına yönəlir və bu alternativlər əsasən ailələrin maddi imkanlarından asılı olur. Bu vəziyyət sosial bərabərsizliyi dərinləşdirir və təhsil sisteminin inklüzivliyini zəiflədir. Tədqiqat bu riskləri üzə çıxararaq təhsildə sosial ədalətin qorunması baxımından da mühüm əhəmiyyət daşıyır.

## Mövcud təşəbbüslər və görülmüş işlər

Azərbaycan təhsil sistemində tam orta təhsil pilləsi ilə ali təhsilə qəbul sistemi arasındakı uyğunsuzluğu azaltmaq məqsədilə son illərdə bir sıra institusional və normativ təşəbbüslər həyata keçirilmişdir. Bu təşəbbüslər əsasən məktəb təhsilinin məzmununun yenilənməsi, bacarıq-yönümlü yanaşmanın gücləndirilməsi və qəbul prosesinin tənzimlənməsi istiqamətində cəmlənmişdir.

İlk növbədə, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” nda məktəb təhsilinin şagirdləri ali təhsilə və əmək bazarına hazırlayan əsas mərhələ olduğu xüsusi vurğulanmışdır. Strategiyada bilik ötürülməsindən daha çox bacarıq və səriştələrin formalaşdırılması prioritet kimi müəyyən edilmişdir (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2013). Bu yanaşma tam orta təhsil pilləsinin funksional rolunun gücləndirilməsinə yönəlmiş mühüm siyasət sənədidir.

Bununla paralel olaraq, ümumi təhsilin dövlət standartları və fənn kurikulumları yenilənmiş və tədris prosesində analitik düşünmə, problem həll etmə və müstəqil öyrənmə bacarıqlarının inkişafı əsas məqsəd kimi müəyyən edilmişdir (Elm və Təhsil Nazirliyi, 2020). Kurikulum islahatları məktəb təhsilinin keyfiyyətini artırmağı hədəfləsə də, bu bacarıqların ali təhsilə qəbul imtahanlarında sistemli şəkildə ölçülməsi hələ də məhdud olaraq qalır.

Ali təhsilə qəbul sahəsində Dövlət İmtahan Mərkəzi tərəfindən qəbul prosesinin mərkəzləşdirilmiş və şəffaf şəkildə təşkili təmin edilmiş, imtahan qaydalarında müəyyən texniki və struktur dəyişikliklər aparılmışdır. Qəbul mexanizminin əsas məqsədi bərabər imkanların yaradılması və qiymətləndirmədə obyektivliyin qorunması olmuşdur (Dövlət İmtahan Mərkəzi, 2024). Lakin mövcud qəbul modeli əsasən test əsaslı qiymətləndirməyə söykəndiyindən məktəbdə formalaşdırılan bacarıqların tam əks olunması problemi qalmaqdadır.

Eyni zamanda, müəllimlərin peşəkar inkişafı və məktəbdaxili tədrisin gücləndirilməsi istiqamətində ixtisasartırma proqramları və metodiki dəstək mexanizmləri genişləndirilmişdir. Bu tədbirlər məktəb təhsilinin keyfiyyətinin yüksəldilməsinə xidmət etsə də, məktəb və qəbul sistemi arasında funksional uyğunluğun tam təmin olunması üçün hələ kifayət etmir (Elm və Təhsil Nazirliyi, 2022).

Ümumilikdə mövcud təşəbbüslər göstərir ki, problem dövlət səviyyəsində tanınır və onun həlli istiqamətində addımlar atılır. Lakin bu tədbirlər əsasən məktəbdaxili tədrisin təkmilləşdirilməsinə yönəldiyindən məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan struktur və funksional uyğunsuzluq hələ də qalmaqdadır.

### 1.1 Tədqiqatın metodologiyası

Bu capstone tədqiqatı Azərbaycan təhsil sistemində tam orta təhsil pilləsi ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğu araşdırmaq məqsədi ilə aparılmışdır. Tədqiqatda qarışıq metodoloji yanaşmadan istifadə edilmişdir.

Yəni həm kəmiyyət, həm də keyfiyyəyönümlü tədqiqat üsulları tətbiq olunmuşdur. Bu yanaşma problemin yalnız nəzəri səviyyədə deyil eyni zamanda praktik və empirik müstəvidə təhlilinə imkan vermişdir.

Kəmiyyət tədqiqatı çərçivəsində iki sorğu həyata keçirilmişdir. Birinci geniş sorğu 700 nəfərdən artıq müəllimi əhatə etmişdir və əsas məqsəd müəllimlərin tam orta təhsil səviyyəsində tədris prosesi ilə ali təhsilə qəbul tələbləri arasındakı uyğunluq barədə fikirlərini öyrənmək olmuşdur. İkinci sorğu 180 nəfərdən artıq şəxsi əhatə etmişdir və problemin həlli üçün təklif olunan fərqli siyasət variantlarının müəyyən meyarlar üzrə qiymətləndirilməsi məqsədi ilə aparılmışdır. Hər iki sorğu **Google Forms** platforması vasitəsilə onlayn formada aparılmışdır. Bu üsul iştirakçıların rahat və anonim şəkildə cavab verməsini təmin etmişdir və məlumatların daha geniş coğrafi əhatə ilə toplanmasına imkan yaratmışdır. Sorğu sualları məktəb proqramının qəbul tələblərinə uyğunluğu, şagirdlərin hazırlıq səviyyəsi, mövcud sistemin yaratdığı çətinliklər və uyğunluğun əldə olunması üçün hansı yolları həlledici kimi qiymətləndirmələri kimi istiqamətləri əhatə etmişdir.

Keyfiyyətyönümlü tədqiqat mərhələsində məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun praktik təzahürlərini daha dərindən anlamaq məqsədilə dərinləşdirilmiş yarı-strukturlaşdırılmış ekspert müsahibələri aparılmışdır. Bu çərçivədə ADA Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimləri ilə iki fərqli müsahibə həyata keçirilmişdir. Müsahibələrdən biri videogörüş formatında, digəri isə yazılı formada aparılmışdır.

Seçilmiş metodoloji yanaşma respondentlərin mövzu ilə bağlı şəxsi müşahidələrini, peşəkar təcrübələrini və əsaslandırılmış mövqelərini daha ətraflı şəkildə ifadə etməsinə imkan vermişdir. Müsahibələrin əsas məqsədi kəmiyyət tədqiqatı mərhələsində aparılmış müəllim sorğularının nəticələrində üzə çıxan ümumi meylləri keyfiyyət baxımından şərh etmək, eləcə də məktəb tədrisi ilə ali təhsilə qəbul mexanizmləri arasındakı uyğunsuzluğun real təhsil praktikasında necə təzahür etdiyini izah etmək olmuşdur. Müsahibə sualları tədqiqatın metodoloji şəffaflığını təmin etmək məqsədilə Əlavələr bölməsinə daxil edilmişdir. Bu yanaşma empirik nəticələrin daha etibarlı interpretasiyasına və əldə olunan tapıntıların tədqiqatın ümumi analitik çərçivəsi ilə əlaqələndirilməsinə imkan yaratmışdır.

Tədqiqatda istifadə olunan faktiki məlumatların bir hissəsi rəsmi mənbələrdən əldə edilmişdir. Bu mənbələrə Azərbaycan Respublikasının təhsil sahəsi üzrə normativ sənədləri, Elm və Təhsil Nazirliyinin hesabatları, Dövlət İmtahan Mərkəzinin rəsmi statistik məlumatları və strateji sənədlər daxildir. Rəsmi mənbələrdən istifadə tədqiqatın etibarlılığını artırmış və əldə olunan nəticələrin mövcud təhsil siyasəti ilə əlaqələndirilməsinə imkan yaratmışdır.

Toplanmış kəmiyyət və keyfiyyət məlumatları analitik yanaşma əsasında təhlil edilmişdir. Sorğu nəticələri ümumi meyllərin və əsas problemlərin müəyyənləşdirilməsi üçün istifadə olunmuşdur. Müsahibələr isə bu meyllərin səbəblərini və nəticələrini izah edən tamamlayıcı mənbə kimi çıxış etmişdir. Rəsmi sənədlərin təhlili ilə empirik nəticələr arasında əlaqə qurularaq mövcud uyğunsuzluğun sistemli xarakter daşıdığı əsaslandırılmışdır.

Nəticə etibarilə bu metodoloji yanaşma tədqiqatın əsas problemini çoxşaxəli şəkildə araşdırmağa imkan vermişdir. Müəllim rəyləri praktiki müşahidələr və rəsmi

sənədlərin təhlili birgə istifadə olunaraq tam orta təhsil və ali təhsilə qəbul sistemi arasındakı funksional uyğunsuzluq elmi və empirik əsaslarla ortaya qoyulmuşdur

## Tədqiqatın məhdudiyyətləri

Hər bir elmi araşdırmada olduğu kimi bu tədqiqatın da müəyyən məhdudiyyətləri mövcuddur. Bu məhdudiyyətlərin qeyd olunması tədqiqatın nəticələrinin düzgün şərh edilməsi və obyektiv qiymətləndirilməsi baxımından vacibdir.

İlk məhdudiyyət sorğu metodunun xüsusiyyətləri ilə bağlıdır. Sorğular onlayn formada Google Forms platforması vasitəsilə aparıldığından iştirakçıların cavabları özünüqiymətləndirməyə əsaslanmışdır. Bu isə bəzi hallarda subyektiv yanaşmalara və fərdi təcrübələrin ümumiləşdirilməsində müəyyən təhriflərə səbəb ola bilər.

İkinci məhdudiyyət tədqiqatın hədəf qrupunun tərkibi ilə əlaqədardır. 700 nəfəri əhatə edən sorğuda müəllimlər iştirak etsə də tədqiqatda şagirdlər və valideynlər birbaşa respondent kimi iştirak etməmişdir. Bu səbəbdən problemin şagird və ailə perspektivindən necə qəbul edildiyi dolğun şəkildə əks olunmamışdır.

Üçüncü məhdudiyyət keyfiyyət tədqiqatının əhatə dairəsi ilə bağlıdır. Tədqiqat çərçivəsində yalnız iki təhsil işçisi ilə dərinləşdirilmiş müsahibə aparılmışdır. Müsahibələrin sayı məhdud olduğundan əldə olunan keyfiyyət məlumatları ümumiləşdirilmiş nəticə kimi deyil daha çox mövcud meylləri izah edən tamamlayıcı məlumat kimi qiymətləndirilməlidir.

Dördüncü məhdudiyyət istifadə olunan rəsmi məlumatların xarakterindən irəli gəlir. Tədqiqatda faktiki məlumatlar əsasən Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin rəsmi sənədlərinə əsaslanmışdır. Bu sənədlər sistemin ümumi vəziyyətini əks etdirsə də bəzi hallarda operativ dəyişiklikləri və qeyri rəsmi praktikaları tam şəkildə əhatə etmir.

Beşinci məhdudiyyət tədqiqatın zaman çərçivəsi ilə bağlıdır. Araşdırma müəyyən zaman aralığında aparıldığından təhsil sistemində gələcəkdə həyata keçirilə biləcək islahatların və dəyişikliklərin təsiri bu tədqiqatın nəticələrində nəzərə alınmamışdır.

Yuxarıda qeyd olunan məhdudiyyətlər tədqiqatın ümumi etibarlılığını zəiflətmir lakin əldə olunan nəticələrin kontekst daxilində və ehtiyatla şərh olunmasını zəruri edir. Bu məhdudiyyətlər gələcək tədqiqatlar üçün daha geniş empirik baza yaradılması və fərqli maraqlı tərəflərin prosesə cəlb edilməsi baxımından istiqamətverici rol oynaya bilər.

# II FƏSİL
# Problemin səbəbləri

Azərbaycan təhsil sistemində tam orta təhsil pilləsi ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluq son illərdə təhsil sahəsində aparılan müzakirələrin mərkəzi mövzularından birinə çevrilmişdir. Bu uyğunsuzluq yalnız şagirdlərin imtahan nəticələri ilə ölçülən texniki məsələ deyil, daha geniş struktur və institusional problemlərin nəticəsi kimi çıxış edir. Beynəlxalq tədqiqatlar göstərir ki məktəb təhsili ilə ali təhsilə keçid mexanizmləri arasında uyğunluq zəif olduqda təhsil sistemi öz əsas funksiyalarından birini itirir və məktəb ali təhsilə aparan əsas mərhələ kimi effektiv rol oynaya bilmir (OECD, 2019).

Azərbaycan kontekstində bu problem xüsusilə tam orta təhsil səviyyəsində daha qabarıq şəkildə müşahidə olunur. Normativ sənədlərdə məktəbin ali təhsilə və əmək bazarına hazırlıq funksiyası açıq şəkildə təsbit edilsə də praktikada qəbul sistemi bu funksiyanı tam şəkildə dəstəkləmir. Dövlət İmtahan Mərkəzinin məlumatlarına görə abituriyentlərin əhəmiyyətli hissəsi məktəb proqramının ali təhsilə qəbul tələblərini tam əhatə etmədiyini düşünür və məktəbdə əldə edilən biliklərin qəbul prosesində həlledici rol oynamadığını bildirir (Dövlət İmtahan Mərkəzi, 2024). Bu göstəricilər məktəb və qəbul sistemi arasında struktur uyğunsuzluğun mövcudluğunu təsdiqləyir.

Beynəlxalq təcrübə də göstərir ki təhsil sistemlərində bu cür uyğunsuzluqlar adətən bir neçə əsas səbəbin üst üstə düşməsi nəticəsində formalaşır. OECD və UNESCO hesabatlarında qeyd olunur ki məktəb tədrisinin məzmunu qiymətləndirmə mexanizmləri ilə uyğun gəlmədikdə şagirdlər məktəbdənkənar alternativ hazırlıq yollarına yönəlir və bu proses zamanla sistemli xarakter alır (UNESCO, 2022; OECD, 2020). Bu yanaşma Azərbaycan üçün də aktualdır çünki məktəbdə formalaşdırılan bacarıqların qəbul imtahanlarında məhdud şəkildə ölçülməsi məktəb təhsilinin funksional dəyərini zəiflədir.

Mövcud vəziyyət onu göstərir ki problemin kökü yalnız imtahan formatında deyil, məktəbin tədris imkanlarında və institusional mexanizmlərində də axtarılmalıdır. Tam orta təhsil səviyyəsində tədrisin dərinləşməsi və fərdiləşməsi imkanlarının məhdudluğu müəllimlərin motivasiya və stimullaşdırma mexanizmlərinin zəifliyi ilə birləşdikdə məktəbin ali təhsilə hazırlıq rolu daha da zəifləyir. Bu isə təhsil sistemində rəsmi və qeyri rəsmi mexanizmlər arasında balansın pozulmasına səbəb olur (Silova, 2010).

Bu fəsildə sözügedən funksional uyğunsuzluğun yaranmasına səbəb olan əsas amillər sistemli şəkildə təhlil ediləcəkdir. Təhlil çərçivəsində problemin məktəb tədrisi ilə qəbul tələbləri arasındakı uyğunsuzluq tədrisin dərinləşməsi və fərdiləşməsi imkanlarının məhdudluğu eləcə də müəllim motivasiyası və institusional stimulların zəifliyi kimi əsas səbəblər üzərində qurulacaq. Bu yanaşma problemin nəticələrinə deyil onu yaradan mexanizmlərə fokuslanmağa və növbəti fəsillərdə təklif ediləcək siyasət alternativləri üçün analitik əsas formalaşdırmağa imkan verəcəkdir.

## 2.1. Tam orta təhsil tədrisi ilə ali təhsilə qəbul imtahanlarının tələbləri arasında funksional uyğunsuzluq

Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan **tədris–qiymətləndirmə səviyyəsində funksional uyğunsuzluğun** əsas səbəblərindən biri məktəb tədrisinin məqsəd və məzmunu ilə qəbul imtahanlarında ölçülən tələblər arasındakı struktur fərqdir. Normativ sənədlərə əsasən tam orta təhsil pilləsinin əsas məqsədi şagirdlərdə yalnız fənn biliklərinin deyil eyni zamanda analitik düşünmə problem həll etmə mətnlə işləmə və tətbiqi bacarıqların formalaşdırılmasıdır. Bu yanaşma ümumi

təhsilin dövlət standartlarında və fənn kurikulumlarında kompetensiya əsaslı təhsil modeli kimi təsbit edilmişdir (Elm və Təhsil Nazirliyi, 2020).

Lakin ali təhsilə qəbul sistemi bu bacarıqların sistemli şəkildə ölçülməsinə deyil, əsasən standartlaşdırılmış test tapşırıqları vasitəsilə biliklərin texniki yoxlanılmasına əsaslanır. Qəbul imtahanlarında şagirdin mövzunu dərin mənimsəməsindən daha çox məhdud vaxt çərçivəsində düzgün cavabı seçmək bacarığı ön plana çıxır. Bu isə məktəbdə formalaşdırılması hədəflənən analitik və tətbiqi bacarıqların qəbul prosesində kifayət qədər əks olunmamasına səbəb olur (Šťastný & Walterová,2019. Tədqiqat ərəfisində apardığımız müsahibələrdən test imtahanları ilə bağlı arqumentlər də bu iddiaları təsdiq edir:” Test əzbərçiliyə əsaslanır, kreativliyi tormozlayır, onun üstünlüyü isə vaxta qənaət etməyindədir”. (ADPU – nin dosenti İ. Əhmədov ilə şəxsi müsahibə. 02 yanvar 2026- cı il)

Dövlət İmtahan Mərkəzinin məlumatları da bu uyğunsuzluğun praktiki müstəvidə hiss olunduğunu göstərir. Abituriyentlər arasında aparılan sorğular məktəb proqramı ilə qəbul imtahanlarının tələbləri arasında tam uyğunluğun olmadığını və məktəbdə əldə edilən biliklərin qəbul prosesində həlledici rol oynamadığını ortaya qoyur (Dövlət İmtahan Mərkəzi, 2024). Bu vəziyyət məktəbin ali təhsilə aparan əsas hazırlıq mərhələsi kimi funksional rolunu zəifləдir. Bunu müəllimlərlə apardığımız sorğular da təsdiq edir. (Müəllimlərlə sorğu nəticələri. Əlavədə)




Sorğuda iştirak edən 757 respondetin təqribən 56%-i də təsdiq edir ki, hazırki məktəb proqramı şagirdləri ali məktəbə qəbul imtahanlarına hazırlamaq üçün yetərli deyil.

Beynəlxalq təcrübə də göstərir ki məktəb tədrisi ilə ali təhsilə qəbul mexanizmləri arasında uyğunluq zəif olduqda təhsil sistemi daxilində struktur gərginlik yaranır. OECD hesabatlarında qeyd olunur ki, qiymətləndirmə mexanizmləri məktəbdə formalaşdırılan bacarıqlarla uzlaşmadıqda şagirdlər və valideynlər məktəb təhsilini ali təhsilə aparan əsas yol kimi deyil formal mərhələ kimi qəbul etməyə başlayırlar (OECD, 2019). Bu yanaşma məktəbin institusional nüfuzuna və tədrisin dəyərinə mənfi təsir göstərir.

Azərbaycan kontekstində də bu uyğunsuzluq tam orta təhsilin ali təhsilə hazırlıq baxımından praktik funksiyasını zəifləдir. Məktəbdə tətbiq olunan bacarıq-yönümlü

kurikulum islahatları qəbul sistemində paralel dəyişikliklərlə müşayiət olunmadıqda tədris və qiymətləndirmə arasında institusional fərqlilik yaranır, məzmun və qiymətləndirmə fərqliliyi. “Qiymətləndirmə məzmunu müəyyən edir, məzmun qiymətləndirməni deyil. Mən nəyi qiymətləndirirəmsə, onu da öyrətməliyəm. Bizim təhsil işçiləri deyir ki, biz nəyi öyrədirik onu qiymətləndir. Əsas problem buradadır.” (ADA Universiteti müəllimi ilə şəxsi müsahibə. 30 dekabr 2025- ci il). Təhsil İnstitutunun son illərə dair analitik materiallarında qeyd olunduğu kimi, kurikulum islahatları çərçivəsində metodik dəstək və müəllim hazırlığı genişləndirilsə də, məktəbdə formalaşdırılan bacarıqların ali təhsilə qəbul prosesində sistemli şəkildə ölçülməsi məhdud olaraq qalır (Azərbaycan Respublikası Təhsil İnstitutu, 2023).

Nəticə etibarilə məktəb tədrisi ilə ali təhsilə qəbul imtahanlarının tələbləri arasında mövcud olan funksional uyğunsuzluq tam orta təhsilin ali təhsilə hazırlıq rolunu zəiflədən əsas struktur səbəblərdən biridir. Bu uyğunsuzluq məktəbin məqsədləri ilə qəbul sisteminin ölçmə mexanizmləri arasında məntiqi əlaqənin pozulmasına gətirib çıxarır. Problemin aradan qaldırılması ayrılıqda məktəb tədrisinin deyil, qəbul sisteminin də paralel şəkildə yenidən nəzərdən keçirilməsini zəruri edir. Məhz bu səbəbdən bu amil Capstone layihəmizdə əsas səbəblərdən biri kimi ayrıca təhlil olunur.

## 2.2. Tam orta təhsil səviyyəsində tədrisin təkmilləşdirmə və fərdiləşmə imkanlarının məhdudluğu

Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında funksional uyğunsuzluğu yaradan əsas səbəblərdən biri məktəbdaxili tədrisin təkmilləşdirmə və fərdiləşmə imkanlarının məhdud olmasıdır. Tam orta təhsil normativ baxımdan şagirdlərin ali təhsilə məqsədyönlü şəkildə hazırlanmasını nəzərdə tutsa da mövcud məktəb modeli bu funksiyanı tam şəkildə icra edə bilmir. Tədris prosesinin kütləvi xarakter daşıması şagirdlərin fərqli akademik səviyyəsinə, onların müxtəlif öyrənmə sürətinə və gələcək ixtisas məqsədlərinə uyğun tədris imkanlarının yaradılmasını məhdudlaşdırır.

Təkminləşdirmə anlayışı şagirdin seçdiyi istiqamət üzrə müəyyən fənlərdə daha sistemli və geniş bilik əldə etməsini ifadə edir.  Lakin mövcud məktəb modelində fənlərin böyük əksəriyyəti eyni intensivliklə və eyni çərçivədə tədris olunur. Bu isə ali təhsilə hazırlaşan şagirdlərin seçdikləri ixtisas istiqamətinə uyğun akademik dərinlik əldə etməsini çətinləşdirir. Nəticədə məktəb təhsili ali təhsilə keçid üçün spesifik hazırlıq mərhələsi kimi deyil, ümumi və standart mərhələ kimi fəaliyyət göstərir.

Fərdiləşmə isə tədrisin şagirdin bilik səviyyəsinə, ehtiyaclarına və akademik məqsədlərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Praktikada isə siniflərdə şagidlərin sıxlığı, şagirdlərin seçdiyi ixtisas qrupuna görə fənn üzrə dərs saatlarının məhdudluğu və müəllimlərin üzərinə düşən yüksək inzibati yük fərdi yanaşmanı məhdudlaşdırır. Müəllim eyni dərs çərçivəsində fərqli səviyyəli şagirdlərin ehtiyaclarını qarşılamaq məcburiyyətində qalır ki, bu da tədrisin effektivliyini azaldır. Bu vəziyyət həm zəif şagirdlərin geridə qalmasına, həm də yüksək potensiala malik şagirdlərin inkişaf imkanlarının məhdudlaşmasına səbəb olur.

Xüsusilə X–XI siniflərdə bu problem daha kəskin xarakter alır. Bu mərhələdə şagirdlərin əsas məqsədi ali məktəbə qəbul olduğu halda məktəbdə təqdim olunan tədris modeli bu məqsədə uyğun şəkildə strukturlaşdırılmır. Şagirdlər məktəbdə keçilən

mövzuların qəbul imtahanlarının tələbləri ilə tam uzlaşmadığını, möhkəmləndirmə və məqsədyönlü hazırlıq imkanlarının məhdud olduğunu bildirirlər.

Mövcud tədqiqatla bağlı müəllimlər arasında apardımız sorğuda iştirak edən repondetlərin 41%-i bildirir ki, şagirdlərin ali məktəbə qəbul üçün repetitor yanına getməsinin səbəblərindən biri də tam orta təhsil səviyəsində şagirdin biliyininin fərdi və əlavə olaraq təkmilləşdirməyə və gücləndirməyə ehtiyacının olmasıdır.




Beynəlxalq tədqiqatlar da göstərir ki məktəbdə fərdiləşdirilmiş və təkminləşdirilmiş tədris imkanları məhdud olduqda ali təhsilə hazırlıq funksiyası zəifləyir (Bray & Lykins, 2012).

Azərbaycan kontekstində bu problemi aradan qaldırmaq məqsədilə son illərdə bir sıra təşəbbüslər həyata keçirilmişdir. Bunlardan biri X–XI siniflərdə tətbiq olunan təmayül sinifləridir. Təmayül sinifləri şagirdlərin maraq və gələcək ixtisas planlarına uyğun olaraq müəyyən fənlər üzrə daha dərinləşdirilmiş tədris almasını nəzərdə tutur. Elm və Təhsil Nazirliyinin məlumatına görə bu model 2019–2020-ci tədris ilindən etibarən tətbiq olunmağa başlamış və sonrakı illərdə mərhələli şəkildə genişləndirilmişdir (edu.gov.az, 2024).

Təmayül siniflərinin əsas üstünlüyü məktəb daxilində ali təhsilə məqsədyönlü hazırlıq imkanlarının yaradılmasıdır. Tədris yükünün yenidən qurulması ixtisaslaşmış müəllimlərin cəlb edilməsi və əlavə resursların təmin olunması bu siniflərdə tədrisin keyfiyyətini artırır. Təhsil platformalarının analizlərinə əsasən təmayül siniflərində təhsil alan şagirdlərin ali təhsil müəssisələrinə qəbul göstəriciləri ümumi məktəb göstəricilərindən daha yüksəkdir (AzEdu.az, 2022).

Bununla yanaşı bu modelin tətbiqi hələlik məhdud xarakter daşıyır. Təmayül siniflərinin coğrafi əhatəsi bərabər deyil, regionlarda tətbiq səviyyəsi daha zəifdir və müəllim resurslarının keyfiyyəti məktəbdən məktəbə fərqlənir. Ən mühüm məhdudiyyət isə ondan ibarətdir ki, təmayül siniflərində təqdim olunan dərinləşdirilmiş tədris ali təhsilə qəbul imtahanlarının formatı ilə tam sinxronlaşdırılmayıb. Bu da məktəb daxilində

yaradılan imkanların qəbul prosesində tam qarşılığını tapmamasına səbəb olur (edu.gov.az).

Eyni məqsədlə tətbiq olunan digər təşəbbüs "tam orta məktəb" modelidir. Bu model məktəbi yalnız dərs keçilən məkan deyil eyni zamanda akademik sosial və psixoloji dəstək mərkəzi kimi formalaşdırmağı hədəfləyir. Pilot tətbiqlər 2018–2019-cu illərdən etibarən Bakı və digər şəhərlərdə həyata keçirilmişdir. Rəsmi məlumatlara görə pilot məktəblərdə əlavə məktəbdaxili hazırlıq məşğələlərinin tətbiqi buraxılış imtahan nəticələrinin 8–12 faiz artmasına səbəb olmuşdur (Elm və Təhsil Nazirliyi, 2023).

Lakin bu modelin də effektivliyi məktəblərin resurs imkanları müəllim motivasiyası və valideynlərin məktəbə etimadı kimi amillərdən asılıdır. Bəzi hallarda sosial vərdişlər və qəbul sisteminin dəyişməzliyi məktəbdaxili dəstək mexanizmlərinin təsirini məhdudlaşdırır.

Nəticə etibarilə məktəbdaxili tədrisin dərinləşmə və fərdiləşmə imkanlarının məhdudluğu tam orta təhsilin ali təhsilə hazırlıq funksiyasını zəiflədən əsas struktur səbəblərdən biridir. Mövcud təşəbbüslər bu problemi qismən azaltmağa yönəlsə də məktəb tədrisi ilə ali təhsilə qəbul sistemi arasında funksional uyğunluq tam təmin olunmadıqca bu boşluq qalmaqda davam edəcək. Bu səbəb də capstone layihəsində ayrıca və əsas səbəblərdən biri kimi təhlil edilir.

## 2.3. Müəllim motivasiyasının və institusional stimulların zəifliyi

Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında uyğunsuzluğu dərinləşdirən əsas səbəblərdən biri də müəllim əməyinin yetərincə stimullaşdırılmaması və peşəkar pedaqoji resursların məhdudluğudur. Müəllimlərin maddi təminatı, sosial statusu və peşəkar inkişaf imkanları məktəb tədrisinin keyfiyyətinə və onun ali təhsilə hazırlıq funksiyasını yerinə yetirmə səviyyəsinə birbaşa təsir göstərir. Beynəlxalq tədqiqatlar göstərir ki, müəllim motivasiyası zəif olan sistemlərdə məktəb təhsili formal xarakter alır və tədrisin real nəticəvermə qabiliyyəti azalır (Lyu, n.d.).

Azərbaycan kontekstində müəllimlərin əməkhaqqının və institusional stimulların bir çox hallarda kifayət etməməsi onların məktəbdaxili tədrisə əlavə resurs və enerji ayırmaq imkanlarını məhdudlaşdırır. Bu vəziyyət xüsusilə yuxarı siniflərdə daha qabarıq şəkildə hiss olunur, çünki tam orta təhsil mərhələsində müəllimdən yalnız proqramın icrası deyil, eyni zamanda şagirdlərin ali təhsilə məqsədyönlü şəkildə hazırlanması gözlənilir. Lakin mövcud stimullaşdırma mexanizmləri müəllimlərin bu əlavə rolu effektiv şəkildə icra etməsini kifayət qədər təşviq etmir. Rəsmi hesabatlar və beynəlxalq müqayisəli tədqiqatlar göstərir ki, müəllimlərin maddi və peşəkar stimullaşdırılması zəif olduqda məktəbdaxili əlavə akademik fəaliyyətlərin keyfiyyəti azalır və müəllimlər alternativ gəlir mənbələrinə yönəlməyə meylli olurlar (OECD, 2020; Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, 2023).

Peşəkar inkişaf imkanlarının məhdudluğu da problemin mühüm komponentlərindən biridir. Kurikulum və qiymətləndirmə islahatları fonunda müəllimlərin yeni tədris metodlarına, formativ qiymətləndirməyə və fərdi şagird dəstəyinə adaptasiyası həlledici əhəmiyyət daşıyır. Lakin bu sahədə davamlı və bütün ölkəni əhatə edən sistemli inkişaf mexanizmləri hələ tam formalaşmayıb. Nəticədə müəllimlərin bir hissəsi köhnə metodlara üstünlük verir və məktəbdə təqdim olunan tədris modeli ali təhsilə hazırlıq baxımından zəif qalır.

Bu boşluğu qismən aradan qaldırmaq məqsədilə son illərdə müəllimlərin ixtisasartırma və peşəkar inkişaf proqramları həyata keçirilmişdir. Rəsmi normativ və analitik sənədlərdə qeyd olunduğu kimi, bu proqramlar müəllimlərin sinif idarəetməsi, fərdi şagird dəstəyi, formativ və summativ qiymətləndirmə, təlim texnologiyalarının tətbiqi və distant təlim metodları üzrə bacarıqlarının gücləndirilməsini hədəfləyir (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, 2024).

Bu istiqamətdə həyata keçirilən təşəbbüslərdən biri olan **“Bir Müəllimin Manifesti”** proqramı müəllimlərin pedaqoji effektivliyinin artırılmasını və məktəbdaxili tədrisin keyfiyyətinin yüksəldilməsini məqsəd qoyur. Azərbaycan Respublikası Təhsil İnstitutunun rəsmi məlumatlarına əsasən, 2024–2025-ci tədris ilində bu proqram çərçivəsində müəllimlər 156 saatlıq ixtisasartırma təlimindən keçmiş və yekun qiymətləndirməyə cəlb olunmuşdur (Azərbaycan Respublikası Təhsil İnstitutu, 2025).

Pilot məktəblərdə aparılan monitorinq nəticələri göstərir ki, təlimlərdə iştirak edən müəllimlərin dərs keyfiyyətində müsbət dəyişikliklər müşahidə olunmuş, məktəbdaxili akademik dəstək mexanizmlərinin təsir gücü artmışdır (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, 2024). Bu nəticələr müəllim resurslarının gücləndirilməsinin məktəbin ali təhsilə hazırlıq funksiyasını artırmaq potensialına malik olduğunu göstərir.

Bununla yanaşı, mövcud təşəbbüslərin təsiri hələlik məhdud xarakter daşıyır. Proqramların kütləviləşməsi və regionlar üzrə bərabər tətbiqi tam təmin olunmayıb. Davamlı monitorinq və nəticə əsaslı stimullaşdırma mexanizmləri zəif olduğundan müəllimlərin məktəbdaxili hazırlıqda aktiv rol alması sistemli xarakter qazanmır. Bu vəziyyət məktəb ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğu daha da dərinləşdirir.

Son illərdə müəllim–repetitor fəaliyyəti ilə bağlı etik və idarəetmə səviyyəsində də müzakirələr aparılır. Media və ekspert rəylərində müəllimlərin öz siniflərindəki şagirdlərə paralel repetitorluq etməsinin maraqların toqquşmasına səbəb olduğu vurğulanır və bu sahədə şəffaf mexanizmlərin yaradılması təklif olunur (Modern.az, 2023). Təklif olunan yanaşmalar qadağadan daha çox etik normalar, qeydiyyat və monitorinq mexanizmləri üzərində qurulur ki bu da müəllim–məktəb–valideyn münasibətlərində institusional balansın qorunmasına yönəlib.

Nəticə etibarilə müəllim motivasiyasının və institusional stimulların zəifliyi tam orta təhsilin ali təhsilə hazırlıq funksiyasını zəifldən əsas struktur səbəblərdən biridir. Müəllimlərin əməkhaqqı və motivasiya problemləri tədris keyfiyyətinə təsir göstərir və bu, məktəbdaxili əlavə fəaliyyətlərə ayırdıqları resursları məhdudlaşdırır (ADP-nin dosenti İ.Əhməov ilə şəxsi müsahibə, 02 yanvar 2026- cı il.) (Paralel.az, 2025). Müəllim resursları gücləndirilmədikcə və məktəbdaxili tədrisə real təşviqlər yaradılmadıqca məktəb ilə ali təhsilə qəbul sistemi arasında funksional uyğunluğun təmin edilməsi çətin olaraq qalacaq. Bu səbəb də capstone layihəsində əsas problemlərdən biri kimi ayrıca təhlil edilir və növbəti fəsildə təklif ediləcək siyasət alternativləri üçün mühüm analitik baza formalaşdırır.

Bu fəsildə aparılan təhlil göstərir ki Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluq tək bir səbəblə izah edilə bilməz. Problemin formalaşması bir-biri ilə qarşılıqlı əlaqədə olan və sistemli xarakter daşıyan bir neçə əsas amilin təsiri nəticəsində baş vermişdir. Məktəb təhsilinin normativ məqsədləri ilə qəbul sisteminin real ölçmə mexanizmləri arasında yaranan

uyğunsuzluq məktəbin ali təhsilə hazırlıq funksiyasını zəiflədən əsas struktur faktor kimi ön plana çıxır.

Fəsildə təhlil olunan birinci səbəb göstərdi ki, məktəb tədrisinin kompetensiya əsaslı məzmunu ali təhsilə qəbul imtahanlarında kifayət qədər əks olunmur. Bu vəziyyət məktəbdə formalaşdırılması hədəflənən analitik və tətbiqi bacarıqların qəbul prosesində həlledici rol oynamasına əngəl olur və məktəbin funksional dəyərini azaldır. İkinci səbəbin təhlili isə məktəbdaxili tədrisin dərinləşməsi və fərdiləşməsi imkanlarının məhdudluğunun, xüsusilə, yuxarı siniflərdə məktəbin ali təhsilə məqsədyönlü hazırlıq rolunu zəiflətməsini ortaya qoydu. Mövcud təmayül və pilot modellər bu boşluğu qismən aradan qaldırsa da onların təsiri hələlik sistemli və bərabər xarakter daşımır.

Üçüncü səbəb üzrə aparılan təhlil müəllim motivasiyası və institusional stimulların zəifliyinin problemin dərinləşməsində mühüm rol oynadığını göstərdi. Müəllimlərin peşəkar inkişaf imkanlarının məhdudluğu və mövcud stimullaşdırma mexanizmlərinin kifayət qədər effektiv olmaması məktəbdaxili tədrisin keyfiyyətinə və onun ali təhsilə hazırlıq funksiyasını yerinə yetirməsinə birbaşa təsir göstərir. Bu amillər birgə şəkildə məktəb ilə qəbul sistemi arasında funksional əlaqənin zəifləməsinə səbəb olur.

Ümumilikdə, II fəsildə aparılan təhlil sübut edir ki, mövcud problem yalnız pedaqoji və ya qiymətləndirmə məsələsi deyil, daha geniş struktur və idarəetmə problemidir. Məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında məntiqi və funksional əlaqə pozulduqda bu boşluq müxtəlif alternativ mexanizmlərlə doldurulur və məktəbin institusional rolu zəifləyir. Bu baxımdan problemin aradan qaldırılması təkcə ayrı-ayrı elementlərin deyil, bütöv sistemin yenidən düşünülməsini tələb edir.

Bu fəsildə müəyyən edilmiş səbəblər növbəti fəsildə təqdim olunacaq siyasət alternativləri üçün analitik əsas yaradır. III fəsildə məqsəd bu struktur uyğunsuzluğu azaltmağa yönəlmiş mümkün həll mexanizmlərini təhlil etmək, onların effektivlik, ,səmərəlilik, ədalətlilik, reallaşdırılma və elastiklik imkanlarını qiymətləndirməkdir. Beləliklə, növbəti fəsil II fəsildə ortaya qoyulan problemlərin praktik və siyasət yönümlü cavablarını formalaşdırmağa həsr olunacaq.

# III FƏSİL
# Siyasət Seçimləri

Əvvəlki fəsildə aparılan təhlil göstərdi ki Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluq struktur və institusional xarakter daşıyır. Məktəb tədrisi ilə qəbul imtahanlarının tələbləri arasındakı uyğunsuzluq, tədrisin dərinləşməsi və fərdiləşməsi imkanlarının məhdudluğu, eləcə də müəllim motivasiyası və institusional stimulların zəifliyi bu problemin əsas səbəbləri kimi müəyyən edilmişdir. Bu səbəblər bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərərək məktəbin ali təhsilə hazırlıq funksiyasını zəiflədir və sistem daxilində balanssızlıq yaradır.

Bu fəsildə məqsəd mövcud problemin yalnız təsvirini vermək deyil, onun aradan qaldırılması üçün mümkün siyasət seçimlərini müəyyən etmək və təhlil etməkdir. Təklif olunan siyasət seçimləri II fəsildə müəyyən edilmiş səbəblərə cavab vermək və məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında funksional uyğunluğu gücləndirmək məqsədi daşıyır. Burada əsas diqqət məktəbin ali təhsilə aparan əsas və etibarlı hazırlıq mərhələsinə çevrilməsi imkanları üzərində cəmlənir.

III fəsildə təqdim ediləcək siyasət seçimləri mövcud institusional çərçivə, resurs imkanları və icra oluna bilmə səviyyəsi nəzərə alınmaqla formalaşdırılmışdır. Hər bir seçim təhsil sisteminə mümkün təsiri, reallaşdırılma imkanları və uzunmüddətli nəticələri baxımından qiymətləndiriləcəkdir. Bu yanaşma növbəti fəsildə aparılacaq müqayisəli qiymətləndirmə və ən uyğun alternativin seçilməsi üçün analitik zəmin yaradır.

## 3.1 Ali təhsil müəssisələrinə tələbə qəbul modelinin yenidən formalaşdırılması

Hazırkı ali təhsilə qəbul mexanizmi əsasən Dövlət İmtahan Mərkəzinin keçirdiyi mərkəzləşdirilmiş imtahana əsaslanır. Şagirdlərin tam orta təhsil mərhələsində göstərdikləri uzunmüddətli akademik fəaliyyət, məktəbdə əldə etdikləri bilik və bacarıqlar qəbul prosesində formal şəkildə nəzərə alınmır. Bu vəziyyət məktəb təhsilinin ali təhsilə hazırlıq funksiyasını zəiflədir və şagirdlərin bütün diqqətini yalnız imtahan nəticəsinə yönəltməsinə səbəb olur.

Aparılmış empirik tədqiqatların nəticələri də bu yanaşmanın məktəbin funksional rolunu zəiflətdiyini göstərir. Sorğuda iştirak edən müəllimlərin əhəmiyyətli hissəsi məktəbi “kölgə təhsil” mövqeyindən çıxarmaq üçün ali təhsilə qəbul modelinin dəyişdirilməsini zəruri hesab etmişdir.




Respondentlərin təxminən 51 faizi mövcud problemlərin əsas həll yolunu qəbul sisteminin yenidən qurulmasında görür. Bu nəticə göstərir ki, qəbul mexanizmi məktəbdaxili tədrisin dəyərini artıran əsas siyasət alətlərindən biri kimi çıxış edir və onun yenilənməsi zəruridir." Tetdən sistematik və kütləvi istifadə artıq XX əsrdə qalmışdır. Bir çox ölkələrdə təhsil sistemində testdən imtina edilib, ya da epizodik istifadə edilir… Bəzi fənlər üzrə biliyin qiymətləndirilməsində testlərin tətbiqi məqbul hesab edilə bilər, lakin fizika və riyaziyyat üçün yox." (ADPU- nin dosenti İ. Əhmədov. Paralel. az. 11.05.2024)

Bu problemin aradan qaldırılması məqsədilə ali təhsilə qəbul sistemi Elm və Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi tərəfindən birgə formalaşdırılan çoxkomponentli modelə keçməlidir. Təklif olunan model məktəbin institusional rolunu gücləndirməyi, şagirdin uzunmüddətli təhsil fəaliyyətini qiymətləndirməyi və qəbul prosesində balanslı ölçmə mexanizmi yaratmağı hədəfləyir.

## Təklif olunan qəbul modeli

**Təklif edilən qəbul sistemi üç əsas komponent üzərində qurulur.**
**1. Məktəbdaxili illik qiymətləndirmə**
*(25–30 faiz çəki)*

Hazırda məktəb qiymətlərinin ali təhsilə qəbulda hüquqi çəkisinin olmaması məktəb təhsilinin əhəmiyyətini azaldır və şagirdləri yalnız mərkəzləşdirilmiş imtahana yönəldir. Bu komponentin əsas məqsədi məktəbin rolunu gücləndirmək və şagirdin illik akademik fəaliyyətini qəbul prosesində real dəyərə çevirməkdir.
Bu çərçivədə X və XI siniflərin illik qiymətləri müəyyən çəki ilə qəbul balına əlavə olunur. Qiymətləndirmə yalnız summativ yoxlamalarla məhdudlaşmır, eyni zamanda formativ fəaliyyətlər, layihələr, yazı işləri və təqdimatlar əsasında formalaşdırılır. Qiymətlərin obyektivliyini təmin etmək üçün Elm və Təhsil Nazirliyi tərəfindən vahid qiymətləndirmə

meyarları, standartlaşdırılmış tapşırıq bankları və təsadüfi monitorinq mexanizmləri tətbiq olunur. Bütün nəticələr elektron şagird portfolioları sistemində qeydə alınır. Bu yanaşma məktəbdə dərslərin keyfiyyətinə marağı artırır və şagirdlərin məktəbi formal mərhələ kimi qəbul etməsinin qarşısını alır.

**2. Şagird portfolioları və praktiki fəaliyyət**

*(20–30 faiz çəki)*

Şagirdin akademik potensialı yalnız test nəticələri ilə deyil, onun bütöv təhsil fəaliyyəti əsasında qiymətləndirilməlidir. Bu məqsədlə qəbul prosesinə şagird portfolioları daxil edilir.

Portfoliolar aşağıdakı fəaliyyətləri əhatə edə bilər: illik layihə və tədqiqat işləri, fənlər üzrə təqdimatlar və esselər, elmi və sosial müsabiqələrdə iştirak, olimpiada və yaradıcılıq nailiyyətləri, ictimai və könüllü fəaliyyətlər.

Elm və Təhsil Nazirliyi tərəfindən vahid elektron portfolio platforması yaradılır və şagirdin bütün fəaliyyəti bu sistemdə toplanır. Universitetlər bu məlumatlara çıxış əldə edir, təsdiq və nəzarət mexanizmləri isə sui-istifadə hallarının qarşısını alır. Bu komponent şagirdlərin real bacarıqlarının inkişafını stimullaşdırır və yalnız imtahan texnikasına əsaslanan hazırlıq modelinin təsirini azaldır.

**3. Dövlət İmtahan Mərkəzinin yekun imtahanı**

*(40–50 faiz çəki)*

Mərkəzləşdirilmiş imtahan tam ləğv edilmir, çünki obyektivlik və standartlaşdırma baxımından vacibdir. Lakin imtahan qəbul prosesində yeganə həlledici amil olmaqdan çıxır. DİM imtahanları biliklə yanaşı tətbiqi və analitik bacarıqları ölçən formatda yenidən tənzimlənir. Açıq tipli tapşırıqların çəkisi artırılır və imtahan sessiyalarının ildə iki dəfə keçirilməsi imkanı yaradılır. Bu yanaşma bir imtahanın yaratdığı yüksək riski azaldır.

**Universitetlər üçün əlavə seçim imkanları**

Yeni model ali təhsil müəssisələrinə ixtisaslara uyğun əlavə qəbul meyarları müəyyən etmək imkanı verir. Bu meyarlara müsahibələr, qabiliyyət imtahanları, esse və yaradıcılıq portfolioları, praktiki tapşırıqlar daxil edilə bilər. Bu yanaşma universitetlərin seçiciliyini artırır və qəbul prosesini daha məqsədyönlü edir.

Təklif olunan model məktəb–universitet əlaqəsini gücləndirir və məktəbin ali təhsilə aparan əsas hazırlıq mərhələsi kimi rolunu bərpa edir. Şagirdlər məktəbdə göstərdikləri fəaliyyətin qəbul nəticəsinə təsir etdiyini gördükdə təhsil prosesinə daha məsuliyyətlə yanaşır. Qəbulun tək imtahana bağlı olmaması sosial ədaləti gücləndirir və məktəbdənkənar alternativ mexanizmlərin təsirini zəiflədir. Bu model uzunmüddətli perspektivdə məktəb təhsilinin dəyərini artıran və təhsil sistemində balans yaradan əsas siyasət seçimi kimi çıxış edir.

## Beynəlxalq təcrübə: çoxkomponentli qəbul modelləri necə işləyir?

Beynəlxalq təcrübə göstərir ki ali təhsilə qəbulun yalnız bir mərkəzləşdirilmiş imtahan nəticəsinə bağlanması bir çox ölkələrdə riskləri artırdığı üçün tədricən balanslaşdırılmış modellərlə tamamlanır. Bir sıra sistemlərdə məktəbdə toplanan göstəricilər (orta təhsil uğuru, məktəb göstəriciləri və ya portfoliolar) mərkəzi imtahanın nəticəsi ilə birlikdə qiymətləndirilir. OECD-in ali təhsil sistemlərinin performansına dair icmal yanaşması da qəbul meyarlarının və seçiciliyin tələbələrin hazırlıq səviyyəsinə və sistem nəticələrinə təsir etdiyini vurğulayır; bu kontekstdə qəbul mexanizmlərinin dizaynı

ali təhsilə keçidi formalaşdıran əsas idarəetmə alətlərindən biri kimi təqdim olunur (OECD, 2019; OECD, 2025).

Bu yanaşmanın ən yaxın regional nümunələrindən biri Türkiyədir. Türkiyədə universitetlərə qəbul YKS mərkəzləşdirilmiş imtahanı üzərindən aparılsa da, yerləşdirmə balının hesablanmasında məktəb nailiyyətini ifadə edən "Ortaöğretim Başarı Puanı (OBP)" mexanizmi də tətbiq olunur. ÖSYM-nin rəsmi izahlarında OBP-nin hesablanma qaydaları və yerləşdirmə balına daxil edilmə məntiqi ayrıca normativ prosedur kimi göstərilir. Bu modelin mahiyyəti ondan ibarətdir ki şagirdin orta təhsildəki nəticələri mərkəzi imtahanla birlikdə yekun yerləşdirmə balına təsir edən əlavə komponent rolunu oynayır və məktəb performansını qəbul prosesindən tam kənarda saxlamır (ÖSYM, n.d.-a; ÖSYM, 2025).

Digər nümunə Qazaxıstandır. Qazaxıstanda ali təhsilə qəbul mexanizminin əsas dayağı "Unified National Testing (UNT)" nəticələridir və bu imtahanın elektron formatda, il ərzində bir neçə dəfə verilməsi imkanı mövcuddur. Rəsmi dövlət mənbələrində qəbulun UNT nəticələrinə əsaslandığı və məzunların UNT-ni ildə bir neçə dəfə vermək imkanının olduğu qeyd edilir. Bu yanaşma bir gündə verilən imtahanın "həlledici yeganə hadisə" olmasının yaratdığı riski müəyyən qədər yumşaldır və qəbulun stres yükünü azaltmağa yönələn texniki dizayn elementi kimi dəyərləndirilə bilər (Government of Kazakhstan, n.d.).

Gürcüstan nümunəsində isə qəbul prosesi əsasən vahid milli imtahanlar üzərindən qurulub və bu çərçivədə "General Skills" imtahanı analitik və verbal-riyazi bacarıqları ölçən komponent kimi təqdim olunur. Gürcüstanın rəsmi təhsil qurumlarının məlumatlarında "General Skills" imtahanının strukturuna dair detallı təsvir verilir və qəbul prosesində bu tip bacarıq ölçən komponentin ayrıca yer tutduğu görünür. Bu nümunə onu göstərir ki qəbul mexanizmi yalnız fənn bilikləri yox, müəyyən dərəcədə ümumi bacarıqları da ayrıca alətlə ölçməyi hədəfləyə bilər (Ministry of Education and Science of Georgia, 2011; Ministry of Education and Science of Georgia, n.d.).

Bu müqayisələr Azərbaycan üçün iki praktik nəticə verir. Birincisi, regional sistemlərdə belə məktəb nəticələrinin (məsələn Türkiyədə OBP kimi) qəbul hesablamasına daxil edilməsi məktəbi prosesdən tam kənarlaşdırmamaq üçün istifadə olunan real mexanizmdir. İkincisi, qəbul imtahanının ya çoxdəfəlik verilməsi (Qazaxıstan), ya da bacarıqölçən komponentlərlə zənginləşdirilməsi (Gürcüstanın General Skills imtahanı) yüksək riskli tək-sessiyalı imtahan modelinin təsirini azaltmağa yönələn yanaşmalar kimi çıxış edir. Bu səbəbdən, Azərbaycanda təklif olunan çoxkomponentli qəbul modeli həm məktəb qiymətləndirməsinin qəbulda görünən payını artırmaqla, həm də mərkəzi imtahanın yeganə həlledici mexanizm statusunu balanslaşdırmaqla məktəb–qəbul əlaqəsinin bərpasına xidmət edə bilər.

## 3.2 Məktəbdaxili fənn dərnəkləri və universitetə qəbulyönümlü hazırlıq modelinin yaradılması

### Universitet proqramlarına uyğun məktəbdaxili hazırlıq mərkəzləri

Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun aradan qaldırılması üçün məktəbdaxili tədrisin yalnız əsas dərs saatları ilə məhdudlaşdırılması kifayət etmir. Şagirdlərin ali təhsilə məqsədyönlü şəkildə hazırlanması üçün məktəb daxilində əlavə, lakin sistemli və məzmunlu hazırlıq mexanizmlərinə ehtiyac yaranır. Bu baxımdan məktəblərdə fənn dərnəklərinin və

klubların yaradılması məktəbin ali təhsilə hazırlıq rolunu gücləndirə biləcək mühüm siyasət seçimlərindən biri kimi çıxış edir.

Hazırkı vəziyyətdə Azərbaycan məktəblərində fəaliyyət göstərən dərnək və klublar əksər hallarda formal xarakter daşıyır və ali təhsilə hazırlıq funksiyasını yerinə yetirmir. Bu fəaliyyətlər şagirdlərin akademik və analitik bacarıqlarını inkişaf etdirməkdən daha çox əlavə məşğuliyyət kimi qəbul olunur. Nəticədə şagirdlər universitetə hazırlıq üçün məktəbdənkənar alternativ mexanizmlərə üz tuturlar və məktəbin funksional rolu zəifləyir.

Aparılmış sorğunun nəticələri də məktəbdaxili alternativ hazırlıq mexanizmlərinə ehtiyac olduğunu göstərir. Sorğuda iştirak edən müəllimlərin əhəmiyyətli hissəsi ali təhsilə hazırlığın yalnız imtahan və repetitorluq üzərindən qurulmasının məktəbin rolunu zəiflətdiyini qeyd etmişdir. Respondentlərin böyük qismi məktəb daxilində əlavə, məqsədyönlü hazırlıq mexanizmlərinin yaradılmasının şagirdlərin repetitorluğa yönəlməsini azalda biləcəyini düşünür. Bu yanaşma məktəbdaxili fənn dərnəklərinin sistemli şəkildə təşkil olunmasının aktual siyasət ehtiyacı olduğunu göstərir.




Sorğunun nəticələrindən aydın görsənir ki, respondetlərin əksəriyyətinin fikrincə məktəbdə keçirilən dərslərin keyfiyyətinin artırılması ali məktəbə qəbul üçün əlavə hazırlığa olan ehtiyac tələbini azaldar.

Bu siyasət seçimi çərçivəsində təklif olunur ki məktəblərdə fənn dərnəkləri universitet proqramları və ixtisas istiqamətləri ilə uyğunlaşdırılmış məktəbdaxili hazırlıq mərkəzləri kimi fəaliyyət göstərsin. Bu dərnəklər yalnız test yönümlü məşğələlər deyil, eyni zamanda analitik düşünmə, tədqiqat aparma, praktiki tətbiq və yaradıcılıq bacarıqlarının inkişafına xidmət etməlidir. Məsələn, riyaziyyat və informatika dərnəkləri problem həll etmə və məntiqi təfəkkürü, biologiya və kimya dərnəkləri laboratoriya təcrübəsi və tədqiqat bacarıqlarını, humanitar istiqamətli dərnəklər isə esse yazma, mətn analizi və təqdimat bacarıqlarını inkişaf etdirməlidir.

Dərnəklərin effektiv fəaliyyəti üçün müəllimlərin stimullaşdırılması mühüm şərt kimi çıxış edir. Dərnəklərdə çalışan müəllimlər üçün əlavə əməkhaqqı, performansa əsaslanan mükafatlandırma və ya peşəkar inkişaf imkanlarının genişləndirilməsi nəzərdə tutulmalıdır. Bu, müəllimlərin dərnəklərə formal deyil, nəticəyönümlü yanaşmasını təmin edər və məktəbdaxili hazırlığın keyfiyyətini yüksəldər.

Dərnək fəaliyyəti çərçivəsində şagirdlərin qiymətləndirilməsi yalnız iştirak faktına deyil, real fəaliyyət nəticələrinə əsaslanmalıdır. Layihə işləri, təqdimatlar, tədqiqat tapşırıqları və analitik fəaliyyətlər elektron şagird portfoliolarında toplanmalı və ali təhsilə qəbul prosesində əlavə meyar kimi nəzərə alınmalıdır. Bu yanaşma məktəbdə əldə olunan bacarıqların qəbul sistemində real qarşılıq tapmasına imkan yaradar və məktəb–universitet əlaqəsini gücləndirər.

Dərnəklərə qoşulma pulsuz və ya minimal ödənişlə təşkil edilməlidir ki, bütün şagirdlər üçün bərabər imkanlar yaradılsın. Bu xüsusilə maddi imkanı məhdud olan ailələrin uşaqları üçün əhəmiyyətlidir və ali təhsilə hazırlıqda sosial bərabərsizliyin dərinləşməsinin qarşısını ala bilər. Elm və Təhsil Nazirliyi tərəfindən dərnəklərin proqram uyğunluğu, müəllim fəaliyyəti və şagird iştirakı üzrə vahid monitorinq mexanizmi tətbiq edilməli, dərnəklərin fəaliyyəti mütəmadi qiymətləndirilməlidir.

Bu siyasət seçiminin həyata keçirilməsi məktəbin ali təhsilə hazırlıq funksiyasını gücləndirə və məktəbdaxili tədrisin praktik dəyərini artıra bilər. Şagirdlər universitetə hazırlıq üçün məktəbdənkənar alternativlərə deyil, məktəbin öz imkanlarına güvənməyə başlayar. Dərnəklər vasitəsilə şagirdlərin yalnız test nəticələri deyil, real bacarıqları və akademik inkişafı ön plana çıxarılacaq. Nəticə etibarilə məktəb təhsili ali təhsilə aparan əsas və etibarlı mərhələ kimi mövqeyini gücləndirər və təhsil sistemində mövcud olan funksional uyğunsuzluğun azaldılmasına töhfə verər.

## Beynəlxalq təcrübə: Məktəbdaxili akademik klublar və ali təhsilə hazırlıq modelləri

Beynəlxalq təcrübə göstərir ki, məktəbdaxili akademik klublar, ixtisaslaşma əsaslı əlavə proqramlar və istiqamətləndirilmiş hazırlıq mexanizmləri ali təhsilə qəbul prosesində məktəbin rolunu gücləndirmək üçün effektiv alətlərdən biri kimi istifadə olunur. Xüsusilə qəbul mexanizmlərinin yalnız yekun imtahanlara deyil, məktəbdə formalaşan bacarıqlara və uzunmüddətli akademik fəaliyyətə əsaslandığı ölkələrdə məktəbdaxili əlavə hazırlıq mexanizmləri kölgə təhsilin təsirini azaltmaq məqsədi daşıyır.

### Cənubi Koreya

Cənubi Koreyada ali təhsilə qəbulda məktəbdənkənar repetitorluğun geniş yayılması dövlət üçün ciddi siyasət problemi kimi qiymətləndirilmişdir. Bu problemi azaltmaq məqsədilə hökumət tərəfindən **məktəb əsaslı "after-school programs"** genişləndirilmişdir. Bu proqramlar rəsmi məktəb strukturu daxilində təşkil olunur və əsasən ali təhsilə qəbulda tələb olunan akademik bacarıqların inkişafına yönəlir. Tədqiqatlar göstərir ki, bu proqramların məqsədi yalnız akademik dəstək vermək deyil, eyni zamanda valideynlərin və şagirdlərin kölgə təhsilə olan asılılığını azaltmaqdır (Bae & Jeon, 2013; Bray & Lykins, 2012).

Empirik araşdırmalar sübut edir ki, məktəb əsaslı əlavə akademik proqramlarda iştirak edən şagirdlər repetitor xidmətlərinə daha az müraciət edir və məktəb tədrisinə daha yüksək etimad göstərirlər (Kim & Park, 2010). Bu model məktəbin ali təhsilə hazırlıq funksiyasını gücləndirən institusional mexanizm kimi çıxış edir.

### Türkiyə

Türkiyədə ali təhsilə qəbul sistemi mərkəzləşdirilmiş imtahana əsaslansa da, dövlət məktəblərində **"Destekleme ve Yetiştirme Kursları (DYK)"** adlı məktəbdaxili hazırlıq mexanizmi tətbiq olunur. Bu kurslar əsasən yuxarı sinif şagirdləri üçün nəzərdə tutulur və qəbul imtahanlarının məzmununa uyğun əlavə akademik dəstək məqsədi

daşıyır. DYK-lar dövlət tərəfindən maliyyələşdirilir və müəllimlərin bu kurslarda iştirakı rəsmi əmək fəaliyyəti kimi tanınır (Milli Eğitim Bakanlığı, 2022).

Araşdırmalar göstərir ki, bu kurslar xüsusilə aşağı və orta gəlirli ailələrin övladları üçün ali təhsilə hazırlıqda alternativ mexanizm rolunu oynayır və məktəbdənkənar hazırlıq bazarının təsirini qismən zəiflədir (OECD, 2019). Beləliklə, məktəb daxilində təşkil olunan əlavə hazırlıq ali təhsilə qəbulda sosial bərabərsizliyin dərinləşməsinin qarşısını almağa yönəlmiş siyasət aləti kimi çıxış edir.

**Sinqapur**

Sinqapurda ali təhsilə qəbul prosesi mərhələli şəkildə **holistic və aptitude-based** yanaşmaya keçid edir. Aparıcı universitetlər (məsələn, National University of Singapore və Nanyang Technological University) qəbul prosesində akademik göstəricilərlə yanaşı, şagirdlərin məktəbdə və məktəbdənkənar mühitdə qazandıqları nailiyyətləri, layihə fəaliyyətlərini və akademik klublarda iştirakını qiymətləndirir (NUS, 2023; NTU, 2023).

Bu yanaşma məktəbləri şagirdlər üçün **portfolioların formalaşdırıldığı əsas hazırlıq mühiti**nə çevirir. OECD-nin hesabatlarına görə, belə modellər məktəbdaxili fəaliyyətlərin ali təhsilə qəbulda real dəyər qazandığı hallarda şagirdlərin yalnız test nəticələrinə yönəlmiş hazırlıq strategiyalarından uzaqlaşmasına səbəb olur (OECD, 2020).

**OECD ölkələri üzrə ümumi nəticələr**

OECD ölkələrində aparılan müqayisəli tədqiqatlar göstərir ki, məktəbdaxili akademik klublar, layihə əsaslı öyrənmə və istiqamətlənmiş əlavə proqramlar ali təhsilə qəbul mexanizmləri ilə əlaqələndirildikdə məktəbin institusional rolu güclənir və kölgə təhsilin təsiri azalır (OECD, 2019; OECD, 2020).

Xüsusilə vurğulanır ki, bu mexanizmlər yalnız əlavə dərs kimi deyil, **qəbul sistemində tanınan və ölçülən fəaliyyətlər** olduqda effektiv nəticə verir. Əks halda, dərnəklər formal xarakter daşıyır və sistemli dəyişiklik yaratmır.

Beynəlxalq təcrübə sübut edir ki, məktəbdaxili fənn dərnəkləri və əlavə akademik hazırlıq mexanizmləri yalnız qəbul sistemi ilə funksional şəkildə əlaqələndirildikdə təsirli siyasət alətinə çevrilir. Cənubi Koreya, Türkiyə və Sinqapur nümunələri göstərir ki, məktəbin ali təhsilə hazırlıq funksiyasının gücləndirilməsi üçün əlavə mexanizmlər dövlət siyasətinin bir hissəsi kimi dizayn edilməli, müəllim stimullaşdırması və qiymətləndirmə mexanizmləri ilə dəstəklənməlidir. Bu təcrübələr Azərbaycan kontekstində təklif edilən məktəbdaxili hazırlıq modellərinin normativ və praktiki əsaslandırılmasını gücləndirir.

## 3.3. Müəllim motivasiyasının gücləndirilməsi və məktəbdaxili institusional stimulların yaradılması

Tam orta təhsilin ali təhsilə hazırlıq funksiyasının zəifləməsində mühüm rol oynayan amillərdən biri müəllim əməyinin mövcud stimullaşdırma mexanizmləri ilə adekvat şəkildə dəstəklənməməsidir. Təhsil sistemlərində müəllimlərin maddi və qeyri-maddi motivasiyası birbaşa olaraq tədrisin keyfiyyətinə, məktəbin institusional nüfuzuna və şagirdlərin məktəbdaxili hazırlıq imkanlarına təsir göstərir. Beynəlxalq tədqiqatlar göstərir ki müəllimlərin fəaliyyətinin nəticəyə bağlı stimullaşdırılması olmayan sistemlərdə məktəbdənkənar paralel hazırlıq mexanizmləri güclənir və məktəbin ali təhsilə hazırlıq rolu zəifləyir (OECD, 2019).

Azərbaycan kontekstində müəllimlərin əməkhaqqı və əlavə fəaliyyətlərə görə stimulların məhdudluğu məktəbdaxili dərs, dərnək və hazırlıq fəaliyyətlərinin

cəlbediciliyini azaldır. Mövcud şəraitdə müəllim üçün məktəbdaxili əlavə fəaliyyətlərlə müqayisədə məktəbdənkənar fəaliyyətlər daha stabil gəlir mənbəyi kimi qəbul olunur. Bu isə məktəb daxilində ali təhsilə məqsədyönlü hazırlıq mexanizmlərinin zəifləməsinə və tədrisin fragmentasiyasına səbəb olur.

**Təklif olunan siyasət: Performans əsaslı məktəbdaxili stimullaşdırma modeli**

Bu siyasət seçimi müəllimlərin motivasiyasını gücləndirməyi, məktəbdaxili tədrisi ali təhsilə hazırlığın əsas məkanı kimi möhkəmləndirməyi və institusional balans yaratmağı hədəfləyir.

***1. Performans əsaslı bonus sistemi***

Beynəlxalq təcrübədə müəllimlərin fəaliyyətinin ölçülə bilən göstəricilər əsasında stimullaşdırılması geniş tətbiq olunur. Məsələn, **Estoniya** və **Sinqapur** təhsil sistemlərində müəllimlərin əməkhaqqı yalnız baza maaşı ilə məhdudlaşmır, şagirdlərin inkişaf göstəriciləri, məktəbdaxili layihələr və əlavə akademik fəaliyyətlər bonus mexanizmləri vasitəsilə qiymətləndirilir (OECD, 2020; Darling-Hammond et al., 2017).

Azərbaycan üçün təklif edilən modeldə müəllimlərin bonusları aşağıdakı göstəricilər əsasında müəyyən edilə bilər: şagirdlərin akademik inkişaf dinamikası, dərnək və layihə fəaliyyətlərində iştirak, olimpiada və əlavə hazırlıq proseslərinə töhfə. Bu yanaşma müəllimi yalnız dərs saatı icraçısı deyil, məktəbin ali təhsilə hazırlıq missiyasının əsas icraçısı kimi mövqeləndirir.

***2. Məktəbdaxili əlavə fəaliyyətlər üçün maliyyə stimulları***

**Finlandiya** və **Cənubi Koreya** təcrübəsi göstərir ki məktəbdaxili əlavə akademik fəaliyyətlər üçün müəllimlərə rəsmi ödəniş mexanizmləri yaradıldıqda məktəbdənkənar alternativlərin təsiri azalır və məktəb əsas hazırlıq mərkəzinə çevrilir (Sahlberg, 2015; Kim & Lee, 2019).

Bu çərçivədə dərnəklər, layihələr və olimpiada hazırlığı üçün müəllimlərə əlavə ödənişlərin verilməsi məktəbdaxili fəaliyyətləri repetitorluğa real alternativə çevirə bilər.

***3. Ali peşəkar kateqoriya və karyera pillələri***

OECD ölkələrində geniş yayılmış yanaşmalardan biri müəllimlər üçün karyera pillələrinin yaradılmasıdır. **Sinqapurun Teacher Growth Model-i** müəllimlərin inkişafını ali kateqoriya, mentorluq və liderlik rolları ilə stimullaşdırır (OECD, 2019).

Azərbaycan üçün uyğunlaşdırılmış modeldə ali kateqoriya yüksək şagird nəticələri, məktəbdaxili layihələrdə liderlik və davamlı peşəkar inkişafla əlaqələndirilə bilər. Bu kateqoriya müəllim üçün həm maliyyə, həm də institusional üstünlük yaradar.

***4. Məktəb rəhbərliyinin səlahiyyətlərinin artırılması və nəticəyə bağlı idarəetmə***

**Böyük Britaniya** və **Niderland** təcrübəsi göstərir ki məktəb direktorlarının müəllim seçimi və performansın idarə olunması üzrə daha geniş səlahiyyətlərə malik olması məktəbin ümumi nəticələrini yaxşılaşdırır (Pont, Nusche, & Moorman, 2008).

Direktorların nəticəyə bağlı stimullaşdırılması, məktəbin akademik göstəricilərinə görə bonus mexanizmlərinin tətbiqi məktəb daxilində sağlam rəqabət mühiti yarada bilər.

***5. Məktəbin müstəqil inkişaf fondları***

**Almaniya** və **Kanada** məktəblərində tətbiq olunan məktəb əsaslı inkişaf fondları yerli icmaların, bələdiyyələrin və donorların məktəbə cəlb edilməsini təmin edir və tədris keyfiyyətini artırır (Leithwood et al., 2020).

Azərbaycan üçün təklif edilən modeldə bu fondlar müəllimlərin peşəkar inkişafı, dərnəklər və şagird layihələrinin maliyyələşdirilməsi üçün istifadə edilə bilər və tam şəffaf hesabatlılıq mexanizmi ilə idarə olunmalıdır.

**Gözlənilən təsir və müqayisəli qiymətləndirmə**

Beynəlxalq təcrübə göstərir ki müəllim motivasiyasının sistemli şəkildə gücləndirilməsi məktəbin ali təhsilə hazırlıq funksiyasını bərpa edən əsas mexanizmlərdən biridir. Təklif olunan model tətbiq edildikdə məktəbdaxili tədris real nəticə gətirən fəaliyyətə çevrilir, müəllimlərin məktəbdənkənar alternativlərə yönəlmə ehtiyacı azalır və məktəb ali təhsilə aparan əsas hazırlıq platforması kimi mövqeyini möhkəmləndirir. Bu yanaşma sosial bərabərliyi gücləndirir və uzunmüddətli perspektivdə təhsil sistemində funksional balans yaradır.

## 3.4. Təklif olunan siyasət alternativlərinin liseylərdə pilot tətbiqi

Tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında funksional uyğunluğun gücləndirilməsi məqsədilə təklif olunan siyasət alternativlərinin birbaşa ölkə miqyasında tətbiqi əvəzinə, ilkin mərhələdə ölkə üzrə fəaliyyət göstərən **lisey və gimnaziyalarda** pilot layihə kimi həyata keçirilməsi daha məqsədəuyğun hesab olunur. Liseylər akademik profilli şagird kontingentinə, nisbətən daha güclü müəllim resurslarına və tədris innovasiyalarının sınaqdan keçirilməsi üçün uyğun institusional mühitə malik olduqları üçün pilot tətbiq üçün optimal platforma rolunu oynayır.

Pilot mərhələdə çoxkomponentli qəbul modeli, universitet proqramlarına uyğun məktəbdaxili fənn dərnəkləri və müəllim motivasiyasını gücləndirən stimullaşdırma mexanizmləri seçilmiş liseylərdə paralel şəkildə tətbiq oluna bilər. Bu yanaşma təklif olunan siyasətlərin real təsirini ölçməyə, potensial riskləri və icra çətinliklərini əvvəlcədən müəyyən etməyə imkan verər. Pilot layihələr çərçivəsində şagird nailiyyətləri, məktəbdaxili iştirak səviyyəsi və ali təhsilə hazırlıq göstəriciləri üzrə müqayisəli monitorinq aparılmalıdır.

Pilot tətbiqin nəticələri əsasında uğurlu mexanizmlər təkmilləşdirilərək mərhələli şəkildə digər ümumi təhsil müəssisələrinə genişləndirilə bilər. Bu yanaşma siyasət qərarlarının sübuta əsaslanmasını təmin edir və sistem miqyasında dəyişikliklərin daha dayanıqlı və effektiv həyata keçirilməsinə şərait yaradır.

Bu fəsildə Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun aradan qaldırılmasına yönəlmiş əsas siyasət alternativləri təhlil edilmişdir. Təklif olunan siyasət seçimləri məktəbin ali təhsilə hazırlıq funksiyasını gücləndirmək, tədris və qiymətləndirmə mexanizmləri arasında məntiqi əlaqəni bərpa etmək və sistem daxilində yaranmış struktur balanssızlığı azaltmaq məqsədi daşıyır.

Birinci siyasət seçimi kimi universitetlərə qəbul modelinin çoxkomponentli formada yenidən qurulması məktəbdə şagirdin uzunmüddətli akademik fəaliyyətinin qəbul prosesində real dəyər qazanmasına imkan verir. İkinci siyasət seçimi məktəbdaxili fənn dərnəklərinin və klubların universitet proqramlarına uyğun hazırlıq mərkəzləri kimi təşkili yolu ilə məktəbin əlavə, lakin sistemli hazırlıq imkanlarını genişləndirir. Üçüncü siyasət seçimi isə müəllim motivasiyasının gücləndirilməsi, institusional stimulların yaradılması və məktəb idarəçiliyinin çevikliyinin artırılması vasitəsilə məktəbdaxili tədrisin keyfiyyətini yüksəltməyə yönəlmişdir. Bu alternativlərin liseylərdə pilot layihə kimi tətbiqi isə siyasətlərin reallaşdırılma imkanlarını və real təsirini qiymətləndirməyə şərait yaradır.

Aparılan təhlil göstərir ki hər bir siyasət seçimi problemin müəyyən aspektlərinə cavab versə də onların effektivliyi, ədalətlilik səviyyəsi və icra oluna bilmə imkanları bir-birindən fərqlənir. Bu səbəbdən siyasət qərarının verilməsi yalnız alternativlərin

mövcudluğu ilə deyil, onların müqayisəli üstünlükləri və məhdudiyyətlərinin sistemli qiymətləndirilməsi ilə mümkün ola bilər.

Məhz bu zərurət IV fəsildə əsas diqqətin ən uyğun siyasət alternativinin seçilməsinə yönəldilməsini şərtləndirir. Növbəti fəsildə təklif olunan siyasət seçimləri effektivlik, sosial ədalət və reallaşdırılma imkanları meyarları əsasında müqayisəli şəkildə qiymətləndiriləcək və Azərbaycan təhsil sistemi üçün ən məqsədəuyğun alternativ əsaslandırılacaqdır. Bu yanaşma capstone layihəsinin siyasət yönümlü məntiqini tamamlayaraq, tədqiqatdan praktik tövsiyəyə keçidi təmin edəcəkdir.

# IV FƏSİL
## TƏKLİF EDİLƏN HƏLL YOLLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Əvvəlki fəsildə Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun aradan qaldırılmasına yönəlmiş əsas siyasət alternativləri müəyyən edilmiş və məzmun baxımından təhlil olunmuşdur. Lakin siyasət alternativlərinin mövcudluğu onların avtomatik olaraq optimal həll yolu olduğunu göstərmir. Effektiv siyasət seçimi yalnız alternativlərin sistemli və obyektiv qiymətləndirilməsi yolu ilə mümkündür.

Bu fəsildə məqsəd III fəsildə təqdim edilən siyasət alternativlərini strukturlaşdırılmış analitik çərçivə əsasında qiymətləndirmək və Azərbaycan təhsil sistemi üçün ən uyğun həll yolunu müəyyən etməkdir. Qiymətləndirmə prosesi beynəlxalq siyasət təhlili yanaşmalarına uyğun olaraq beş əsas meyar əsasında aparılır: effektivlik, səmərəlilik, ədalətlilik, reallaşdırma imkanı və elastiklik və təkmilləşmə potensialı. Bu meyarlar siyasət alternativlərinin yalnız nəzəri üstünlüklərini deyil, eyni zamanda onların praktik tətbiq imkanlarını və uzunmüddətli təsirlərini dəyərləndirməyə imkan verir.

Effektivlik meyarı təklif olunan həll yolunun əsas problemin — məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasındakı funksional uyğunsuzluğun — aradan qaldırılmasına nə dərəcədə töhfə verdiyini qiymətləndirir. Səmərəlilik meyarı tələb olunan resurslarla əldə edilən nəticələr arasındakı balansı nəzərə alır. Ədalətlilik meyarı siyasət alternativinin müxtəlif sosial qruplar, xüsusilə də maddi imkanları məhdud olan şagirdlər üçün bərabər imkanlar yaradıb-yaratmadığını təhlil edir. Reallaşdırma imkanı alternativin mövcud institusional, hüquqi və maliyyə çərçivəsində tətbiq oluna bilmə səviyyəsini qiymətləndirir. Elastiklik və təkmilləşmə meyarı isə siyasət həllinin zamanla dəyişən ehtiyaclara uyğunlaşdırıla bilmə və mərhələli şəkildə inkişaf etdirilmə potensialını nəzərə alır.

Bu çərçivə əsasında növbəti bölmələrdə təqdim olunan üç əsas siyasət həlli ayrı-ayrılıqda qiymətləndiriləcək, onların üstün və zəif tərəfləri müqayisəli şəkildə təhlil ediləcəkdir. Aparılan qiymətləndirmə nəticəsində IV fəsil növbəti mərhələdə ən uyğun siyasət alternativinin əsaslandırılmış şəkildə seçilməsi üçün analitik zəmin yaradacaqdır.

### 4.1. Ali təhsil müəssisələrinə tələbə qəbul modelinin yenidən formalaşdırılmasının qiymətləndirilməsi

Bu bölmədə ali təhsilə qəbulun çoxkomponentli model əsasında yenidən formalaşdırılması təklifinin effektivliyi, səmərəliliyi, ədalətliliyi, reallaşdırma imkanı və elastiklik potensialı qiymətləndirilir. Qiymətləndirmə zamanı bu modelin tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun aradan qaldırılmasına nə dərəcədə töhfə verdiyi əsas götürülür.

**Effektivlik**

Çoxkomponentli qəbul modeli problemin mahiyyətinə birbaşa təsir göstərən həll yolu kimi qiymətləndirilə bilər. Model şagirdin yalnız bir imtahan nəticəsinə deyil, tam orta təhsil dövründə göstərdiyi uzunmüddətli akademik fəaliyyətə əsaslanır. Məktəbdaxili qiymətləndirmə, şagird portfolioları və mərkəzləşdirilmiş imtahanın birlikdə nəzərə alınması məktəb təhsili ilə qəbul mexanizmi arasında məntiqi əlaqəni gücləndirir. Bu yanaşma məktəbin ali təhsilə hazırlıq funksiyasını bərpa edir və məktəbdə əldə olunan bilik və bacarıqların qəbul prosesində real qarşılıq tapmasını təmin edir. Bu baxımdan model effektivlik meyarı üzrə yüksək potensiala malikdir.

**Səmərəlilik**

Səmərəlilik baxımından model orta və uzunmüddətli perspektivdə müsbət qiymətləndirilə bilər. İlkin mərhələdə elektron portfolioların yaradılması, qiymətləndirmə mexanizmlərinin standartlaşdırılması və monitorinq sistemlərinin qurulması əlavə resurs tələb etsə də, mövcud institusional strukturlar üzərində formalaşdırılması bu xərcləri nisbətən məhdudlaşdırır. Uzunmüddətli perspektivdə isə məktəbdaxili tədrisin güclənməsi nəticəsində əlavə paralel mexanizmlərə olan ehtiyac azalır və resurslardan daha səmərəli istifadə imkanı yaranır. Buna görə də model səmərəlilik baxımından qənaətbəxş hesab edilə bilər.

**Ədalətlilik**

Çoxkomponentli qəbul modeli sosial ədalətlilik baxımından mühüm üstünlüklərə malikdir. Tək imtahana əsaslanan sistemlə müqayisədə bu model maddi imkanları məhdud olan şagirdlər üçün daha bərabər imkanlar yaradır. Şagirdin məktəbdəki davamlı fəaliyyəti, layihələri və akademik inkişafı qəbul prosesində nəzərə alındığı üçün əlavə maliyyə resurslarına çıxışı olmayan şagirdlər də rəqabət qabiliyyətini qoruya bilir. Bununla yanaşı, məktəbdaxili qiymətləndirmədə şəffaflıq və vahid standartlar təmin edilmədiyi halda regional və institusional fərqlərin ədalətliliyə mənfi təsir göstərmə riski mövcuddur. Bu səbəbdən modelin ədalətlilik potensialı yüksək olsa da, güclü nəzarət mexanizmlərinə ehtiyac duyur.

**Reallaşdırma imkanı**

Modelin reallaşdırılması institusional koordinasiya tələb edir. Elm və Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi, hüquqi-normativ bazanın yenilənməsi və texniki infrastrukturun qurulması əsas şərtlərdir. Qısa müddətdə ölkə üzrə tam tətbiq müəyyən çətinliklər yarada bilər. Lakin liseylərdə pilot layihə kimi mərhələli tətbiq modeli bu riskləri azaldır və reallaşdırma imkanını artırır. Bu baxımdan model orta səviyyədə, lakin mərhələli yanaşma ilə real tətbiq potensialına malikdir.

**Elastiklik və təkmilləşmə potensialı**

Çoxkomponentli qəbul modelinin əsas üstünlüklərindən biri onun elastikliyidir. Model zamanla komponentlərin çəkilərinin dəyişdirilməsi, yeni qiymətləndirmə alətlərinin əlavə olunması və universitetlərin fərdi tələblərinin inteqrasiyası baxımından açıq struktura malikdir. Bu xüsusiyyət siyasətin dinamik şəkildə təkmilləşdirilməsinə və dəyişən təhsil ehtiyaclarına uyğunlaşdırılmasına imkan verir. Elastiklik və adaptasiya qabiliyyəti baxımından bu model digər alternativlərlə müqayisədə üstün mövqedə dayanır.

**Aralıq qiymətləndirmə**

Ümumilikdə, çoxkomponentli qəbul modeli problemin struktur mahiyyətinə cavab verən, effektivliyi və ədalətlilik potensialı yüksək olan siyasət alternativi kimi qiymətləndirilir. Reallaşdırma mərhələsində institusional koordinasiya və monitorinq mexanizmləri gücləndirildiyi təqdirdə bu model Azərbaycan təhsil sistemi üçün uzunmüddətli və dayanıqlı həll yolu ola bilər.

## 4.2. Məktəbdaxili fənn dərnəkləri və universitetə qəbulyönümlü hazırlıq modelinin qiymətləndirilməsi

Bu bölmədə məktəblərdə fənn dərnəklərinin və klubların universitet proqramlarına uyğunlaşdırılmış hazırlıq mexanizmi kimi tətbiqi beş əsas meyar üzrə qiymətləndirilir.

**Effektivlik**

Məktəbdaxili fənn dərnəkləri modeli şagirdlərin akademik və tətbiqi bacarıqlarının inkişafına töhfə verərək məktəbin ali təhsilə hazırlıq funksiyasını qismən gücləndirir. Dərnəklər əsas dərs proqramını tamamlayan əlavə mexanizm kimi çıxış edir və xüsusilə analitik düşünmə, layihə əsaslı öyrənmə və praktiki bacarıqların formalaşdırılmasında müsbət təsir göstərir. Lakin model əsas qəbul mexanizmini birbaşa dəyişmədiyi üçün funksional uyğunsuzluğu tam aradan qaldırmaq gücünə malik deyil.

**Səmərəlilik**

Səmərəlilik baxımından bu model nisbətən aşağı xərcli alternativ hesab edilə bilər. Mövcud məktəb infrastrukturu və müəllim resursları üzərində qurulduğuna görə əlavə maliyyə yükü məhduddur. Eyni zamanda dərnəklərin sistemli təşkili və müəllimlərin stimullaşdırılması müəyyən əlavə resurs tələb edir. Buna baxmayaraq əldə olunan nəticələrlə müqayisədə resurs istifadəsi qənaətbəxş səviyyədə qiymətləndirilə bilər.

**Ədalətlilik**

Modelin əsas üstünlüklərindən biri sosial ədalətlilik potensialıdır. Dərnəklərin məktəb daxilində və pulsuz və ya minimal ödənişlə təşkili maddi imkanı məhdud olan şagirdlər üçün əlavə hazırlıq imkanları yaradır. Bununla belə, məktəblər arasında resurs və müəllim keyfiyyəti fərqləri modelin bütün şagirdlər üçün bərabər təsir göstərməsini məhdudlaşdıra bilər.

**Reallaşdırma imkanı**

Məktəbdaxili fənn dərnəkləri modeli mövcud institusional çərçivədə nisbətən asan tətbiq oluna bilən siyasət alternatividir. Xüsusilə liseylərdə və böyük məktəblərdə pilot tətbiq üçün real imkanlar mövcuddur. Bununla yanaşı, dərnəklərin formal fəaliyyətə çevrilməsi riski effektiv idarəetmə və monitorinq mexanizmləri olmadıqda qalmaqdadır.

**Elastiklik və təkmilləşmə potensialı**

Bu model yüksək elastiklik potensialına malikdir. Dərnəklərin mövzuları, intensivliyi və universitet proqramları ilə uyğunluğu zamanla dəyişdirilə və təkmilləşdirilə bilər. Pilot tətbiqlər əsasında uğurlu təcrübələr genişləndirilə, zəif tərəflər isə mərhələli şəkildə aradan qaldırıla bilər.

**Aralıq qiymətləndirmə**

Ümumilikdə, məktəbdaxili fənn dərnəkləri modeli funksional uyğunsuzluğun təsirlərini azaldan, lakin problemi köklü şəkildə həll etməyən tamamlayıcı siyasət aləti kimi qiymətləndirilir. Bu model əsas qəbul islahatı ilə birlikdə tətbiq edildikdə daha yüksək effekt verə bilər.

## 4.3. Müəllim motivasiyasının gücləndirilməsi və məktəbdaxili institusional stimullar yaradılması modelinin qiymətləndirilməsi

Bu bölmədə müəllimlərin motivasiyasının artırılması, performans əsaslı stimulların tətbiqi və məktəb idarəçiliyinin gücləndirilməsi yolu ilə məktəbdaxili tədrisin keyfiyyətinin yüksəldilməsini hədəfləyən siyasət həlli qiymətləndirilir.

**Effektivlik**

Model məktəbin ali təhsilə hazırlıq funksiyasını dolayısı ilə gücləndirən, lakin problemi birbaşa hədəfləməyən həll yolu kimi qiymətləndirilir. Müəllimlərin məktəbdaxili dərs, dərnək və əlavə hazırlıq fəaliyyətlərinə daha çox resurs ayırması tədrisin keyfiyyətini artırır və şagirdlərin məktəbdənkənar alternativlərə yönəlmə ehtiyacını azalda bilər. Bununla belə, qəbul mexanizmi dəyişmədiyi müddətdə bu təsir məhdud xarakter daşıyır.

**Səmərəlilik**

Səmərəlilik baxımından model orta səviyyədə qiymətləndirilə bilər. Performans əsaslı bonuslar, əlavə ödənişlər və inkişaf fondları müəyyən maliyyə yükü yaradır. Lakin bu xərclər mövcud müəllim resurslarının daha effektiv istifadəsi və məktəbdaxili hazırlığın güclənməsi ilə qismən kompensasiya oluna bilər. Uzunmüddətli perspektivdə müəllim dövriyyəsinin azalması və tədris keyfiyyətinin artması səmərəliliyi yüksəldə bilər.

**Ədalətlilik**

Model sosial ədalətlilik baxımından müsbət potensiala malikdir. Məktəbdaxili stimullar gücləndikcə, əlavə hazırlıq imkanları bütün şagirdlər üçün məktəb daxilində əlçatan olur. Bu xüsusilə maddi imkanı məhdud olan ailələrin övladları üçün əhəmiyyətlidir. Bununla yanaşı, regionlar üzrə resurs fərqləri və idarəetmə keyfiyyəti ədalətli təsirin vahid səviyyədə təmin olunmasını çətinləşdirə bilər.

**Reallaşdırma imkanı**

Modelin tətbiqi hüquqi və institusional baxımdan mümkündür, lakin ciddi idarəetmə və monitorinq mexanizmləri tələb edir. Performansın obyektiv ölçülməsi, şəffaf bonus sistemi və direktor səlahiyyətlərinin balanslı şəkildə artırılması olmadan model istənilən effekti verməyə bilər. Buna görə də reallaşdırma imkanı orta səviyyədə qiymətləndirilir və mərhələli tətbiq zəruri hesab olunur.

**Elastiklik və təkmilləşmə potensialı**

Müəllim motivasiyası modeli yüksək elastiklik potensialına malikdir. Bonus meyarları, stimullaşdırma mexanizmləri və məktəb müstəqilliyi zamanla dəyişdirilə və təkmilləşdirilə bilər. Pilot tətbiqlər və davamlı monitorinq nəticəsində model adaptiv şəkildə inkişaf etdirilə bilər.

**Aralıq qiymətləndirmə**

Ümumilikdə, müəllim motivasiyası və institusional stimullar modeli məktəbdaxili tədrisin keyfiyyətini artıran və funksional uyğunsuzluğun təsirlərini azaldan mühüm tamamlayıcı həll yoludur. Lakin bu model əsas qəbul islahatı ilə paralel tətbiq edildikdə daha yüksək və dayanıqlı nəticə verə bilər.

## 4.4 Ən uyğun siyasət alternativinin seçilməsi və əsaslandırılması

Bu fəsildə aparılan qiymətləndirmə nəticəsində III fəsildə təqdim olunan üç əsas siyasət alternativi beş əsas meyar — effektivlik, səmərəlilik, ədalətlilik, reallaşdırma imkanı və elastiklik — üzrə müqayisəli şəkildə təhlil edilmişdir. Qiymətləndirmə göstərir ki hər bir alternativ məktəb təhsili ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun müxtəlif aspektlərinə cavab verir və fərqli üstünlüklərə malikdir.

Çoxkomponentli ali təhsilə qəbul modeli effektivlik və ədalətlilik meyarları üzrə digər alternativlərdən açıq şəkildə üstünlük təşkil edir. Bu model problemin struktur mahiyyətinə birbaşa təsir göstərərək məktəb təhsilinin ali təhsilə hazırlıq funksiyasını bərpa etməyə yönəlmişdir. Məktəbdaxili akademik fəaliyyətin, portfolioların və mərkəzləşdirilmiş imtahanın birlikdə nəzərə alınması məktəb ilə qəbul mexanizmi arasında məntiqi əlaqəni gücləndirir. Eyni zamanda, model maddi imkanları məhdud olan şagirdlər üçün daha bərabər imkanlar yaradaraq sosial ədalətlilik baxımından əhəmiyyətli üstünlük nümayiş etdirir.

Məktəbdaxili fənn dərnəkləri modeli səmərəlilik və elastiklik baxımından müsbət qiymətləndirilir. Bu alternativ nisbətən aşağı maliyyə yükü ilə tətbiq oluna bilir və məktəbin əlavə hazırlıq imkanlarını genişləndirir. Lakin qəbul mexanizmini birbaşa dəyişmədiyi

üçün funksional uyğunsuzluğun əsas səbəbini aradan qaldırmaq gücünə malik deyil və daha çox tamamlayıcı siyasət aləti kimi çıxış edir.

Müəllim motivasiyası və institusional stimullar modeli məktəbdaxili tədrisin keyfiyyətini artırmaq potensialına malik olsa da, effektivlik baxımından dolayı təsir göstərir. Model tədris mühitini gücləndirir və məktəbin institusional rolunu möhkəmləndirir, lakin qəbul sistemi dəyişmədikcə problemin struktur səviyyədə həlli mümkün olmur. Bununla belə, elastiklik və uzunmüddətli təkmilləşmə potensialı baxımından bu alternativ mühüm əhəmiyyət kəsb edir.

Aparılan müqayisəli təhlil nəticəsində ən uyğun siyasət alternativi kimi **çoxkomponentli ali təhsilə qəbul modelinin** seçilməsi əsaslandırılır. Bu seçim problemin birbaşa səbəblərinə yönəlməsi, məktəb təhsilinin dəyərini sistem səviyyəsində artırması və digər alternativlərin təsirini də gücləndirməsi ilə izah olunur. Digər iki alternativ isə bu əsas modelin effektivliyini artıran və onun tətbiqini tamamlayan dəstək mexanizmləri kimi qiymətləndirilməlidir.

Əvvəlki bölmələrdə təklif olunan siyasət alternativləri effektivlik, səmərəlilik, ədalətlilik, reallaşdırma imkanı və elastiklik meyarları əsasında ayrı-ayrılıqda təhlil edilmişdir. Lakin siyasət qərarlarının əsaslandırılması üçün bu alternativlərin **müqayisəli şəkildə qiymətləndirilməsi** zəruridir.

Bu məqsədlə tədqiqat çərçivəsində aparılmış sorğunun nəticələrinə əsaslanaraq, respondentlərin təklif olunan üç əsas siyasət alternativini qeyd olunan meyarlar üzrə necə qiymətləndirdiyi təhlil edilmişdir. Aşağıdakı qrafik respondentlərin hər bir alternativə verdiyi qiymətlərin ümumi paylanmasını əks etdirir və fəsil üzrə aparılan analitik nəticələrin empirik əsaslandırılmasına xidmət edir.




Sorğu nəticələri göstərir ki, respondentlərin böyük əksəriyyəti **çoxkomponentli qəbul modelini** bütün meyarlar üzrə ən yüksək qiymətləndirilən alternativ kimi dəyərləndirmişdir. Xüsusilə effektivlik və ədalətlilik meyarları üzrə bu alternativ digər modellərdən açıq şəkildə üstünlük təşkil edir. Bu nəticə məktəb–ali təhsil əlaqəsinin gücləndirilməsində qəbul mexanizminin həlledici rol oynadığını göstərir.

Digər tərəfdən, məktəbdaxili fənn dərnəkləri və müəllim stimullaşdırma modelləri də müsbət qiymətləndirilsə də, respondentlərin yanaşmasına görə bu alternativlər əsas problemin aradan qaldırılmasında **tam həlledici deyil, tamamlayıcı mexanizmlər** kimi çıxış edir.

Beləliklə, optimal siyasət yanaşması tək bir alətin tətbiqi ilə məhdudlaşmır, lakin əsas dayağı çoxkomponentli qəbul modeli təşkil edir. Bu modelin liseylərdə pilot tətbiqi, məktəbdaxili fənn dərnəkləri və müəllim motivasiya mexanizmləri ilə paralel şəkildə icrası təhsil sistemində funksional balansın bərpası üçün ən rasional və dayanıqlı yol kimi çıxış edir. Növbəti fəsildə bu siyasət seçiminin icra strategiyası və mərhələli tətbiq mexanizmləri təqdim ediləcəkdir.

# V FƏSİL

# NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

## 5.1. Tədqiqatın ümumi xülasəsi

Bu capstone tədqiqatı Azərbaycan kontekstində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğu araşdırmış və problemin struktur səbəblərini sistemli şəkildə təhlil etmişdir. Araşdırma göstərir ki məktəb təhsilinin kompetensiya əsaslı məqsədləri ilə qəbul imtahanlarının ölçmə mexanizmləri arasında uyğunsuzluq məktəbin ali təhsilə hazırlıq rolunu zəiflədir və alternativ hazırlıq mexanizmlərinin genişlənməsinə zəmin yaradır.

Tədqiqat çərçivəsində problemin əsas səbəbləri kimi qəbul modelinin məhdudluğu, məktəbdaxili tədrisin dərinləşmə və fərdiləşmə imkanlarının zəifliyi, eləcə də müəllim motivasiyası və institusional stimulların yetərsizliyi müəyyən edilmişdir. Aparılan qiymətləndirmə nəticəsində ən uyğun siyasət alternativi kimi çoxkomponentli ali təhsilə qəbul modelinin seçilməsi əsaslandırılmış, digər həll yolları isə bu əsas modelin effektivliyini artıran tamamlayıcı mexanizmlər kimi dəyərləndirilmişdir.

## 5.2. Üstünlük verilən siyasət seçimləri

Aparılmış təhlil və müqayisəli qiymətləndirmə nəticəsində Azərbaycan təhsil sistemi üçün üstünlük verilən əsas siyasət seçimi kimi **ali təhsilə qəbulun çoxkomponentli model əsasında yenidən formalaşdırılması** müəyyən edilmişdir. Bu siyasət seçimi tam orta təhsil ilə ali təhsilə qəbul sistemi arasında mövcud olan funksional uyğunsuzluğun birbaşa səbəblərinə yönəlir və məktəbin ali təhsilə hazırlıq rolunu sistem səviyyəsində gücləndirmək potensialına malikdir.

Çoxkomponentli qəbul modeli məktəbdaxili illik qiymətləndirmənin, şagird portfoliolarının və mərkəzləşdirilmiş imtahanın balanslı şəkildə birləşdirilməsini nəzərdə tutur. Bu yanaşma şagirdin uzunmüddətli akademik fəaliyyətini qəbul prosesində real meyara çevirir, məktəbdə əldə olunan bilik və bacarıqların dəyərini artırır və sosial ədalətlilik baxımından daha bərabər imkanlar yaradır.

Bununla yanaşı, **məktəbdaxili fənn dərnəklərinin universitet proqramlarına uyğunlaşdırılması** və **müəllim motivasiyasını gücləndirən institusional stimulların tətbiqi** əsas siyasət seçimini tamamlayan və onun effektivliyini artıran dəstək mexanizmləri kimi tövsiyə olunur. Bu yanaşmalar məktəb daxilində əlavə hazırlıq imkanlarını genişləndirir, müəllimlərin tədris keyfiyyətinə marağını artırır və siyasət islahatlarının praktik təsirini gücləndirir.

Nəticə etibarilə, üstünlük verilən siyasət yanaşması tək bir alətin tətbiqinə deyil, əsas dayağı çoxkomponentli qəbul modeli olan və onu tamamlayan məktəbdaxili tədris və motivasiya mexanizmləri ilə birlikdə həyata keçirilən inteqrə edilmiş islahat paketinə əsaslanır.

## 5.3. Tövsiyələr

Aparılmış tədqiqatın empirik nəticələri, normativ sənədlərin təhlili və əvvəlki fəsillərdə aparılan analitik müzakirələr göstərir ki Azərbaycan təhsil sistemində tam orta təhsil və ali təhsilə qəbul sistemi arasında mövcud olan uyğunsuzluğun aradan qaldırılması ayrı-ayrı, fragmentar islahatlarla mümkün deyil. Bu problem yalnız tədris və ya qiymətləndirmə müstəvisində deyil, institutlararası əlaqələrin zəifliyi fonunda formalaşmış sistemli məsələdir. Beynəlxalq tədqiqatlar da göstərir ki məktəb təhsili ilə qəbul mexanizmləri arasında əlaqə zəif olduqda, formal təhsil öz əsas funksiyasını itirir və paralel mexanizmlər güclənir (OECD, 2019; Šťastný & Walterová, 2019). Buna görə

də tövsiyələr kompleks, mərhələli və institusional məsuliyyət bölgüsünə əsaslanan siyasət yanaşması çərçivəsində təqdim olunur.

**Elm və Təhsil Nazirliyinə ünvanlanan tövsiyələr**

Elm və Təhsil Nazirliyi üçün əsas tövsiyə tam orta təhsilin ali təhsilə hazırlıq funksiyasının gücləndirilməsinə yönəlmiş institusional mexanizmlərin formalaşdırılmasıdır. Nazirlik səviyyəsində məktəbdaxili qiymətləndirmənin keyfiyyətinin və etibarlılığının artırılması prioritet istiqamət kimi müəyyən edilməlidir. Xüsusilə X–XI siniflər üzrə illik qiymətləndirmənin daha şəffaf və standartlaşdırılmış meyarlar əsasında aparılması məktəb tədrisinin qəbul prosesində real çəkisinin formalaşmasına imkan verə bilər. Tədqiqatın empirik hissəsində əldə olunan nəticələr də göstərir ki məktəb qiymətlərinin qəbul prosesində rol oynamaması məktəbdaxili tədrisin motivasiya gücünü zəiflədir.

Eyni zamanda məktəblərdə universitet proqramlarına uyğun fənn dərnəklərinin və akademik klubların sistemli şəkildə təşkili təşviq edilməlidir. Beynəlxalq təcrübə göstərir ki məktəbdaxili akademik klublar və layihə əsaslı fəaliyyətlər şagirdlərin analitik və tətbiqi bacarıqlarının inkişafında mühüm rol oynayır (Sahlberg, 2015). Bu dərnəklər formal fəaliyyət deyil, ali təhsilə hazırlığı dəstəkləyən praktik mexanizm kimi dizayn olunmalı, müəllimlərin bu fəaliyyətlərdə iştirakı rəsmi iş yükü və stimullaşdırma mexanizmləri ilə dəstəklənməlidir. Nazirlik bu prosesdə metodik rəhbərlik və monitorinq funksiyasını həyata keçirməli, dərnəklərin regionlar üzrə bərabər əlçatanlığını təmin etməlidir.

**Dövlət İmtahan Mərkəzinə ünvanlanan tövsiyələr**

Dövlət İmtahan Mərkəzi üçün əsas tövsiyə ali təhsilə qəbul mexanizmlərinin məktəb tədrisi ilə funksional əlaqəsinin gücləndirilməsidir. Qəbul imtahanları tam ləğv edilmədən, onların ali təhsilə qəbul prosesində yeganə həlledici mexanizm statusundan çıxarılması məqsədəuyğun hesab olunur. Beynəlxalq qiymətləndirmə modelləri göstərir ki mərkəzləşdirilmiş imtahanlar uzunmüddətli məktəb fəaliyyətini tamamlayan komponent kimi çıxış etdikdə həm effektivlik, həm də ədalətlilik artır (OECD, 2020).

Bu çərçivədə mərkəzləşdirilmiş imtahanın çoxkomponentli qəbul modelinin tərkib hissəsi kimi fəaliyyət göstərməsi və digər komponentlərlə balanslaşdırılması vacibdir. Dövlət İmtahan Mərkəzi qəbul imtahanlarının məzmununda tətbiqi və analitik bacarıqları ölçən tapşırıqların payını mərhələli şəkildə artırmalı, məktəb kurikulumlarında nəzərdə tutulan bacarıqların ölçülməsi istiqamətində metodoloji uyğunluğu gücləndirməlidir. Bu yanaşma qəbul imtahanlarının məktəb tədrisi üçün stimullaşdırıcı rolunu artıracaq və məktəb–imtahan qarşıdurmasını zəiflədəcəkdir.

**Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinə birgə ünvanlanan tövsiyələr**

Tədqiqatın əsas nəticələrindən biri göstərir ki mövcud problem institutlararası əlaqəsizliyin məhsuludur. Bu baxımdan ən vacib tövsiyələrdən biri Elm və Təhsil Nazirliyi ilə Dövlət İmtahan Mərkəzi arasında institusional əməkdaşlıq mexanizmlərinin gücləndirilməsidir. Beynəlxalq təhsil idarəçiliyi təcrübəsi göstərir ki qəbul və məktəb sistemləri arasında koordinasiya olmadıqda islahatlar fragmentar xarakter daşıyır və uzunmüddətli təsir göstərmir (Pont, Nusche, & Moorman, 2008).

Birgə işçi qruplarının yaradılması, qəbul mexanizmlərinin məktəb qiymətləndirməsi və şagird portfolioları ilə inteqrasiyasının hüquqi və texniki əsaslarının hazırlanması, eləcə də pilot layihələrin birgə monitorinqi bu əməkdaşlığın əsas istiqamətləri kimi qiymətləndirilə bilər. Bu yanaşma siyasət qərarlarının parçalanmış deyil, sistemli şəkildə həyata keçirilməsinə imkan verəcəkdir.

**Məktəb rəhbərliyi və yerli təhsil idarəetmə orqanlarına ünvanlanan tövsiyələr**

Məktəb səviyyəsində tövsiyələr əsasən icra və tətbiq mexanizmlərinə yönəlir. Məktəb rəhbərliyi məktəbdaxili akademik fəaliyyətlərin real nəticəyə yönəlməsini təmin etməli, fənn dərnəkləri və əlavə hazırlıq proqramlarını formal fəaliyyət səviyyəsindən çıxarmalıdır. Tədqiqat çərçivəsində aparılmış müəllim sorğuları göstərir ki məktəbdaxili əlavə fəaliyyətlərin formal xarakter daşıması şagirdlərin məktəbə olan inamını zəiflədir.

Yerli təhsil idarəetmə orqanları məktəblər arasında imkan fərqlərinin dərinləşməsinin qarşısını almaq üçün resurs bölgüsündə balansı təmin etməli və pilot tətbiqlərin regionlar üzrə ədalətli yayılmasını dəstəkləməlidir. Bu yanaşma sosial bərabərliyin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

**Ümumi qiymətləndirmə və monitorinqə dair tövsiyələr**

Nəhayət, bütün tövsiyə olunan siyasət seçimləri üzrə davamlı monitorinq və qiymətləndirmə mexanizmlərinin institusionallaşdırılması zəruri hesab olunur. Sübuta əsaslanan siyasət yanaşması göstərir ki islahatların real təsiri yalnız tətbiq mərhələsində deyil, sonrakı nəticələrin sistemli şəkildə ölçülməsi zamanı üzə çıxır (OECD, 2019). Bu səbəbdən qəbul edilən siyasətlərin təsiri mütəmadi olaraq qiymətləndirilməli və nəticələrə uyğun olaraq çevik düzəlişlər aparılmalıdır.

Beləliklə, tövsiyə olunan siyasət paketi əsas dayağı çoxkomponentli qəbul modeli olan, onu tamamlayan məktəbdaxili tədris və müəllim stimullaşdırma mexanizmləri ilə birlikdə həyata keçirilən inteqrə edilmiş yanaşmanı əks etdirir. Bu yanaşma Azərbaycan təhsil sistemində məktəbin ali təhsilə aparan əsas və etibarlı hazırlıq mərhələsi kimi rolunun bərpası üçün ən məqsədəuyğun strategiya kimi qiymətləndirilə bilər.

## ƏDƏBİYYAT SİYAHISI


1. **AzEdu.az.** (2022). *Təmayül siniflərində təhsil alan şagirdlərin qəbul göstəriciləri üzrə analiz*. Bakı.

2. **AzEdu.az.** (2024). *Tam orta məktəb modeli və məktəbdaxili dəstək mexanizmləri*. Bakı.
3. **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.** (2020). *Ümumi təhsilin dövlət standartları və fənn kurikulumları*. Bakı.
4. **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.** (2022). *Müəllimlərin peşəkar inkişafı və ixtisasartırma fəaliyyəti üzrə hesabat*. Bakı.
5. **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.** (2023). *Tam orta məktəblərdə pilot layihələrin nəticələri üzrə hesabat*. Bakı.
6. **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi.** (2024). *Ümumi təhsil müəssisələrində müəllimlərin peşəkar inkişafı və təlim ehtiyacları üzrə analitik hesabat*. Bakı.
7. **Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.** (2013). *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*. Bakı.
8. **Azərbaycan Respublikası Təhsil İnstitutu.** (2023). *Ümumi təhsildə kurikulum islahatları və qiymətləndirmə mexanizmləri üzrə analitik hesabat*. Bakı.
9. **Azərbaycan Respublikası Təhsil İnstitutu.** (2025). *"Bir Müəllimin Manifesti" proqramının icrası və nəticələrinə dair hesabat*. Bakı.
10. **Bae, S. H., & Jeon, S.** (2013). Research on after-school programs in Korea: Policy implications. *International Journal for Research on Extended Education, 1*(1), 45–63.
11. **Bray, M.** (2013). *Shadow education: Private supplementary tutoring*. Hong Kong: Comparative Education Research Centre.
12. **Bray, M., & Lykins, C.** (2012). *Shadow education: Private supplementary tutoring and its implications for policy makers*. Paris: UNESCO IIEP.
13. **Darling-Hammond, L., Hyler, M. E., & Gardner, M.** (2017). *Effective teacher professional development*. Palo Alto, CA: Learning Policy Institute.
14. **Dövlət İmtahan Mərkəzi.** (2024). *Ali təhsil müəssisələrinə qəbul qaydaları və statistik göstəricilər*. Bakı.
15. **Dövlət İmtahan Mərkəzi.** (2024). *Ali təhsil müəssisələrinə qəbul imtahanları üzrə statistik hesabatlar*. Bakı.
16. **Education International.** (n.d.). *Regional data on private tutoring in Azerbaijan and Georgia*. https://www.ei-ie.org

17. **Elm və Təhsil Nazirliyi.** (2024). *Müəllimlərin peşəkar inkişafı və ixtisasartırma proqramları*. Bakı.

18. **Government of Kazakhstan.** (n.d.). *Education in Kazakhstan*. Retrieved January 3, 2026, from official government sources.

19. **Kim, E., & Lee, H.** (2019). Teacher compensation and student outcomes in South Korea. *Asia Pacific Education Review, 20*(3), 389–402.

20. **Kim, Y., & Park, H.** (2010). Effects of after-school programs on private tutoring demand in Korea. *Asia Pacific Education Review, 11*(3), 351–362.

21. **Leithwood, K., Harris, A., & Hopkins, D.** (2020). Seven strong claims about successful school leadership. *School Leadership & Management, 40*(1), 5–22.

22. **Lyu, M.** (n.d.). Teacher motivation and instructional quality. *Educational Policy Studies*.

23. **Milli Eğitim Bakanlığı.** (2022). *Destekleme ve yetiştirme kursları yönergesi*. Ankara: MEB.

24. **Ministry of Education and Science of Georgia.** (2011, July 4). *Exams in general skills*. Tbilisi.

25. **Ministry of Education and Science of Georgia.** (n.d.). *Common national entrance examinations*. Retrieved January 3, 2026.

26. **Modern.az.** (2023). *Repetitorluq fəaliyyəti və müəllim etikası ilə bağlı ekspert müzakirələri*. Bakı.

27. **National University of Singapore.** (2023). *Aptitude-based admissions*. https://www.nus.edu.sg

28. **Nanyang Technological University.** (2023). *Aptitude-based admissions (ABA)*. https://www.ntu.edu.sg

29. **OECD.** (2019). *Education at a glance 2019: OECD indicators*. Paris: OECD Publishing.

30. **OECD.** (2020). *Back to the future of education: Four OECD scenarios for schooling*. Paris: OECD Publishing.

31. **OECD.** (2020). *Strengthening the impact of education reforms*. Paris: OECD Publishing.

32. **OECD.** (2020). *Teachers and school leaders as valued professionals*. Paris: OECD Publishing.

33. **OECD.** (2025). *Education at a glance 2025: OECD indicators*. Paris: OECD Publishing.

34. **ÖSYM.** (n.d.). *Ortaöğretim başarı puanı (OBP) hesaplama yönergesi*. Retrieved January 3, 2026.**ÖSYM.** (2025). *2025 YKS: Yükseköğretim programları ve kontenjanları kılavuzu*. Ankara.

35. **Paralel.az.** (2025, April 12). Azərbaycan müəllimlərinin əmək haqqı və təhsildə motivasiya problemləri. https://paralel.az/az/article/508227

36. **Pont, B., Nusche, D., & Moorman, H.** (2008). *Improving school leadership*. Paris: OECD Publishing.

37. **Sahlberg, P.** (2015). *Finnish lessons 2.0*. New York: Teachers College Press.

38. **Silova, I.** (2010). *Private tutoring in Eastern Europe and Central Asia: Policy choices and implications*. Paris: UNESCO IIEP.

39. **Šťastný, V., & Walterová, E.** (2019). Education systems and assessment alignment in secondary education. *European Journal of Education, 54*(3), 356–370.

40. **UNESCO.** (2022). *Global education monitoring report: Gender report*. Paris: UNESCO.

41. **World Bank.** (2009). *The scale of private tutoring in selected countries* (WPS4530). Washington, DC.

## ƏLAVƏLƏR

**MÜƏLLİMLƏR ÜZRƏ SORĞU FORMASI**

Bu sorğu:

- Repetitorluğun səbəblərini,
- Müəllim münasibətini,
- Məktəb və sistem təsirlərini,
- Həll modeli üçün lazım olan real məlumatları tam əhatə edir.

**1. Hansı fənni tədris edirsiniz?**

Copy chart

588 responses



Copy chart

**2. Pedoqoji stajınız nə qədərdir?**

757 responses




Copy chart

**3. Siz repetitorluqla məşğul olursunuz?**

757 responses



Copy chart

**4. Dərs keçdiyiniz şagirdlərin repetitor yanına getməsinə necə baxırsınız?**

739 responses




Copy chart

**5. Şagirdlərinizin repetitor yanına getməsi sizin dərs prosesinizə necə təsir edir?**

741 responses



Copy chart

**6. Sizcə şagirdlərinizin repetitor yanına getməsinin əsas səbəbi nədir?**

**(Çoxseçimli – birdən çox cavab seçilə bilər)**

743 responses




**7. Repetitorluğun artmasının əsas məsuliyyətini kim daşıyır?**

Copy chart

757 responses



Copy chart

**8. Sizcə, repetitorluq şagirdlərin məktəb dərslərinə olan münasibətinə necə təsir edir?**

757 responses




Copy chart

**9. Sizcə, hazırkı məktəb proqramı şagirdləri universitetə qəbul imtahanlarına kifayət qədər hazırlayırmı?**

757 responses



Copy chart

**10. Məktəbdə keçirilən dərslərin keyfiyyətinin artırılması repetitorluğa tələbi azalda bilərmi?**

741 responses




Copy chart

**11. Repetitorluğun qarşısını almağa ehtiyac varmı?**

733 responses



Copy chart

**12. Sizcə, repetitorluğun qarşısını almaq üçün hansı addımlar ən effektiv ola bilər?**

**(Çoxseçimli – birdən çox cavab seçilə bilər)**

746 responses




# Müsahibə sualları

1. Azərbaycan təhsil sistemində bunlardan hansını problem kimi görürsüz?
• Azərbaycanda tam orta təhsil səviyyəsinin kurikulumu ilə ali təhsilə qəbul sistemi arasında uyğunsuzluq.
• Repetitorluğun məktəbə alternativ kimi formalaşması
• Məktəb təhsil sisteminin yetərsizliyi. Sizin fikrinizcə, hazırda Azərbaycanda təhsil sisteminin əsas məqsədi praktikada özünü doğrulda bilirmi?

2. Ölkənin ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsi kurikulumu ilə ali təhsilə qəbul sistemi arasında əlaqəni ümumi şəkildə necə xarakterizə edərdiniz?

3. Test əsaslı qiymətləndirmənin üstün və zəif tərəfləri bir daha Sizin baxışınızda ?

4. Sizin fikrinizcə, məktəb kurikulumu ilə qəbul sistemi arasında uyğunsuzluq varsa, əsas səbəbləri hansılardır ?

5. Uyğunsuzluq vəziyyəti repetitorluğu qidalandıran əsas amildirmi? Ümumilikdə, onun nəticələri nələrdir?

6. Beynəlxalq təcrübədə məktəb kurikulumu və qəbul sistemi arasındakı uyğunluq necə təmin olunur?

7. Azərbaycan kontekstində məktəb kurikulumu ilə qəbul sistemi arasında uyğunluğun təmin edilməsi üçün hansı islahatları tövsiyyə edərdiz?

Həll yollarının qiymətləndirilməsi




| | Efektivlik | Səmərəlilik | Ədalətlilik | Reallaşma imkanı | Elastiklik və təkmilləşmə |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| DİM imtahanlarının tam orta məktəb kurikulumuna uyğunlaşması | 78 | 37 | 46 | 43 | 37 |
| Tam orta təhsil səviyyəsində şagird performansının qiymətlənməsinin ali məktəblərə qəbulda nəzərə alınması | 78 | 35 | 31 | 37 | 34 |
| Müəllimin peşəkarlıq səviyyəsinin yüksəlməsi və məktəb tədrisinə ciddi nəzarət mexanizminin tətbiqi | 82 | 39 | 35 | 29 | 44 |